

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Yeni üçtərəfli platforma:
# Azərbaycan-Türkiyə-İsrail üçbucağı



Bax səh. 3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 12 sentyabr 2023-cü il, çərşənbə axşamı / № 164 (6508). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# Regionun əsas söz sahibləri!



Bax səh. 2



## Vətən müharibəsinə 15 gün qalırdı...

### 12 sentyabr 2020

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 32 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Hacallı, Əlibəyli və Ağdam, Gədəbəy rayonunun Qaravəlilər, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Laçın yolu açıqdır...

Bax səh. 3

## Beşinci köç...



Bax səh. 5

## Mina terroru davam edir...

Son dövrlərdə Qarabağ iqtisadi rayonundakı Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin ərazilərimizə kütləvi şəkildə yeni minalar döşəməsi, bununla da Azərbaycana qarşı mina terroru siyasətini davam etdirməsi müşahidə edilməkdədir.

Müdafiə Nazirliyindən verilən məlumata görə, sentyabrın 10-u saat 13:30 radələrində Azərbaycan Ordusunun hərbi qulluqçusu Eminov Xəyyam Mahal oğlu Ağdam rayonu ərazisində bölmələrimizin təminat yolunda qeyri-qanuni erməni silahlı dəstələrinin kəşfiyyat-diversiya qrupu tərəfindən təxribat məqsədilə basdırılmış piyada əleyhinə minaya düşərək xəsarət alıb. Bildirilib ki, ilk tibbi yardım göstərildikdən sonra yaralı hərbi qulluqçumuz dərhal hərbi tibb müəssisəsinə təxliyə edilib. Onun həyatı üçün təhlükə yoxdur. Hazırda mühəndis-istehkam bölmələri tərəfindən həmin ərazinin minalardan təmizlənməsi işləri aparılır.

Bölgədə mina problemindən zərərçəkənlərin sayı artmağa davam edir. İnsan hüquqlarının birbaşa pozulması kimi xarakterizə edilən bu vəziyyətdə Ermənistan hələ də lazımi instansiyalar qarşısında cavab vermir, yaxud hər hansı cavabdehliyə sövq edilmir. Hadisə ilə bağlı Ombudsmanın da reaksiyası gecikməyib...

Bax səh. 3

## YAP nümayəndə heyəti Çində səfərdədir



Bax səh. 4

## 4 "tezis" - 4 səhv...

Sentyabrın 9-da Xankəndidə "seçkilər" keçirilib. Azərbaycanın ərazisində Şahramanyan 23 qondarma deputatdan 22-sinin "səsi" ilə qondarma rejimin təzə "başçısı" olub. Bu "seçki"nin tanınmayacağı haqqında bilgiləri olsa da, yenidən oyuncaq rejimə növbəti "prezidenti" təyin ediblər. Sayca 5-ci olan Şahramanyan "seçildiyi gün"dən başlayaraq sələflərindən heç də geri qalmayan iddialarla gündəmi zəbt etmək də istəyib. Belə ki, o, Saakyan, Qukasyan məktəbinin davamçısı kimi absurd fikirlərə dolu "proqramını" açıqlayıb. 4 bənddən ibarət olan proqramı Şahramanyanın hansı havada olduğundan xəbər verir. İxtisasca iqtisadçı olan Şahramanyanın şəxsi işində xəfiyyəçilik daha geniş yer alıb. 1999- 2008-ci illərdə qondarma "dqr"in "milli təhlükəsizlik naziri"olub. Sonra vergi sahəsinə üz tutan Şahramanyan bu sahədə müəmmalı təhlükəsizlik və kəşfiyyat idarəsində "rəis" olub. Göründüyü kimi o, iqtisadi "savadını" kəşfiyyat işlərinə yönəldib... "Prezident" kimi proqramına daxil etdiyi həmin 4 bənddə də onun bəzi iqtisadi ştrixləri...

Bax səh. 7

## Azərbaycan-İran əlaqələri genişlənir

Azərbaycanla İran arasında müxtəlif sahələr üzrə əlaqələr genişlənir. Bu baxımdan, iki ölkə arasında hərbi sahədə də əməkdaşlıq diqqət mərkəzindədir. Sentyabrın 9-da Azərbaycan-İran Birgə Komissiyasının görüşündə iştirak etmək məqsədilə general-mayor Məhəmməd Əhədinin rəhbərlik etdiyi İran İslam Respublikasının Silahlı Qüvvələrinin nüamyəndə heyətinin ölkəmizə səfər etməsi də bu faktı təsdiqləyir. Əvvəlcə iranlı qonaqlar Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş...

Bax səh. 6

## İKT-nin inkişafının üstünlükləri

İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişaf etdirilməsi və yayılması bəşəriyyətin inkişafı üçün geniş imkanlar yaradır. Ölkəmizdə İKT-nin daha yüksək səviyyədə inkişafı üçün qarşımızda duran əsas vəzifələrdən biri də yeni informasiya texnologiyalarının təhsilə vaxtında və səmərəli tətbiqidir. Məlumdur ki, ilk addımlar məktəb səviyyəsində atılmalıdır. Düzdür, respublikamızda fəaliyyət göstərən bəzi özəl məktəbəqədər müəssisələrdə kiçikyaşlı uşaqlar kompüterlə tanışlığa başlayır, onların təlimində...

Bax səh. 6

## Humanitar fəaliyyət, yoxsa "xüsusi" missiya?




Bax səh. 5

## G20 G21-ə çevrildi



Bax səh. 7

# Kənd təsərrüfatı sahəsində əməkdaşlıq inkişaf edir

## Prezident İlham Əliyev Avi Dixteri qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də ölkəmizdə səfərdə olan İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Avi Dixteri videokonfrans formatında qəbul edib. Görüşün videokonfrans formatında keçirilməsinə səbəb İsrail nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır. AZƏRTAC xəbər verir ki, söhbət zamanı ikitərəfli münasibətlərimizə toxunularaq, İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun bu ilin mayında Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişlənməsinə töhfə verdiyi bildirildi. Bir neçə gün əvvəl Azərbaycan Prezidentinin köməkçisinin İsrailə səfəri qeyd olundu, ölkəmizin İsraildə səfirliyinin açılmasının əhəmiyyəti vurğulandı. Görüşdə kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafından və bununla bağlı təcrübə mübadiləsinin həyata keçirilməsindən məmnunluq ifadə edildi, bu sahədə əlaqələrin daha da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi. Avi Dixterin səfərinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın dərinləşdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

# Regionun əsas söz sahibləri!

**44 günlük müharibədə şanlı zəfərə imza atan Azərbaycan regionda keyfiyyətcə yeni reallıqlar yaradıb. Müharibədən əvvəl bölgə Ermənistanın işğalçılıq siyasətinə görə risklər və təhdid altında idi. Qalib Azərbaycan işğalçını ağır kapitulyasiyaya məruz qoymaqla bu kimi təhlükələri aradan qaldırdı. Ölkəmiz postmüharibə mərhələsində qalib statusuna baxmayaraq heç bir şərt irəli sürmədən Ermənistanla sülh sazişi imzalamaq, iki ölkə arasında sərhədlərin demarkasiya və delimitasiya olunmasını istəyir. Bu, Azərbaycanın xoş məramının ifadəsidir. Lakin məğlub Ermənistan çirkin siyasətindən əl çəkmək istəmir. Bu ölkədə xaricdəki havadarların diktəsi ilə revanşist qüvvələr baş qaldırıb və onlar yenə də regionu qanlı müharibəyə sürükləməyə çalışırlar. Təbii ki, Azərbaycanın və Ermənistanın bir-birinə daban-dabana zidd olan davranışları digər region dövlətləri tərəfindən adekvat qarşılanır.**

## Ermənistanın yeni müharibə hazırlıqları qlobal gücə çevrilən Türkiyədə də böyük narahatlıqla izlənilir

### Azərbaycan liderinə artan inam

44 günlük müharibədə əldə olunan şanlı qələbənin əsas memarı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevdir. Məhz Onun qətiyyətli siyasi iradəsi ilə ölkəmiz böyük zəfərə aparan müharibə hazırlıqları gördü, öz yenilməz ordusunu formalaşdırdı. İlham Əliyev düşmənin genişmiqyaslı təxribatlarına layiqli şəkildə cavab vermək üçün uyğun zaman seçdi. Müharibə günlərində bütün dünya Azərbaycan liderinin özünəməxsus diplomatik gedişlərinin şahidi oldu. Müharibə günlərində məğlubiyyəti acısı yaşayan Ermənistanın havadarları, o cümlədən də Fransa prezidenti Emmanuel Makron tez-tez Prezident İlham Əliyevə telefon açaraq döyüşlərin dayandırılmasını istəyirdi. Azərbaycanın dövlət başçısı bu kimi təzyiqlər qarşısında geri çəkilmədi və müharibə ölkəmizin ərazi bütövlüyünün təmin olunmasınadək davam etdirildi.

Müharibədə İlham Əliyevin rəhbərliyi ilə əldə olunan şanlı zəfər, postmüharibə dövründə Azərbaycanın sülyaratma prosesinə məsuliyyətli yanaşması, həmçinin regional və qlobal miqyasda əməkdaşlığın genişlənməsinə davamlı töhfələr verməsi ölkəmizə beynəlxalq miqyasda böyük nüfuz qazandırıb. Son vatlarda Avropa İttifaqı (Aİ) məkanına daxil olan ayrı-ayrı ölkələrin dövlət və hökumət başçıları tez-tez belə bir fikir ifadə edirlər: Avropada İlham Əliyevə telefon açmaq, onunla birlikdə şəkil çəkdirmək istəyən liderlərin sayı kifayət qədər çoxdur. Bu fikirlər Azərbaycanın dövlət başçısının liderlik keyfiyyətlərinə, ölkəmizin ardıcıl siyasətinə verilən layiqli qiymətdir.

### Həmişə bir yerdə olan Azərbaycan və Türkiyə

Azərbaycan Prezidenti İlham Əliyevə növbəti telefon zəngi sentyabrın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğandan gəlib. Telefon danışığı əsnasında dövlət başçıları regional məsələləri, həmçinin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyəti müzakirə ediblər.

Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, Azərbaycan və Türkiyə prezidentləri arasında fəal diplomatik təmaslar həmişə yüksək səviyyədə olub. Hər iki lider bir-birinə "əziz qardaşım" deyə müraciət edirlər. Onlar Azərbaycan və Türkiyənin sevinclərini birlikdə bölüşürlər, eyni zamanda, çətin anlarda qardaşlıq köməyini əsirgəmirlər. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi dövrdə Türkiyə bir qayda olaraq Azərbaycanın haqlı mövqeyini və ərazi bütövlüyünü dəstəkləyib, işğalçı Ermənistanla sərhədlərini bağlayıb. 44 günlük Vətən müharibəsi günlərində də Türkiyə Azərbaycanın yanında oldu. Türkiyədən gələn mənəvi-siyasi dəstək ədalətli müharibə aparan Azərbaycana əlavə güc verdi, xalqımızın özünəinam hissini artırdı. Biz qələbədən sonra da bir yerdəyik.

Son vaxtlarda Ermənistanın apardığı müharibə hazırlıqları Azərbaycanda olduğu kimi, qardaş Türkiyədə də birmənalı qarşılanmır. Məlum olduğu kimi, Azərbaycan və Türkiyə özlərinin müttəfiqlik münasibətlərini 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi ilə bir daha rəsmiləşdiriblər. Bu sənəd iki qardaş ölkənin kritik anlarda birgə hərəkət etmək məsuliyyəti yaradır. İndiki halda Ermənistanın yeni müharibə alovlandırmaq cəhdi bütün region dövlətləri kimi, Türkiyənin də maraqlarına ziddir. Buna görə artıq qlobal gücə çevrilən Türkiyə Ermənistanın yeni müharibə hazırlıqlarını böyük narahatlıqla izləyir.



### N.Paşinyanın zəhlə tökən zəngləri

Postmüharibə dövründə başlayan və müəyyən qədər irəli gedən sülh prosesi hazırda dalana dirənib ki, bunun da əsas məsuliyyəti məğlub Ermənistanın üzərindədir. Heç kəsə sirr deyil ki, Ermənistan üçtərəfli Bəyanatın müddəalarını yerinə yetirmir, vasitəçilərin səyi ilə Moskva, Brüssel, Vaşinqton platformalarında əldə olunan razılaşmaları kobud şəkildə pozur. İki ölkə arasındakı şərti sərhədlər boyunca və Rusiya sülhməramlı kontingentinin müvəqqəti xidmət zonasında törədilən təxribatların ssenariləri də Ermənistan rəhbərliyi və bu ölkənin xaricdəki havadarları tərəfindən cızılır. Son vaxtlarda Ermənistanın Hindistandan və Fransadan silahlar tədarük etməsinə dair ardıcıl xəbərlər gəlir. Bütün bunlar məğlub ölkənin yeni müharibə hazırlıqları görməsindən xəbər verir.

Bununla belə, Nikol Paşinyan hakimiyyəti müxtəlif manevrlər etməklə diqqəti Ermənistanın müharibə hazırlıqları aparmasından yayındırmağa çalışır. Xeyli müddətdir ki, Xankəndidə yaşayan erməni əhalinin guya "humanitar böhran"la üzləşməsi manipulyasiyası dövriyyədədir. Ancaq Azərbaycanın qətiyyətli mövqeyi və praktiki gedişləri bu manipulyasiyanı iflasa uğradıb. "Humanitar böhran" fiaskosunun ardınca Nikol Paşinyan yenidən "telefon diplomatiyası"na qayıdış edib. Ermənistanın lideri 44 günlük müharibə günlərində olduğu kimi, yenə də uzaq və yaxın ölkələrin dövlət və hökumət başçılarına, beynəlxalq təşkilatların rəsmilərinə ard-arda zənglər edərək ölkəsinin davranışlarına haqq qazandırmağa, özünə tərəfdaşlar tapmağa cəhdlər göstərir. Nikol Paşinyan yenə də riyakarlıq ortaya qoyaraq sülh danışıqlarını davam etdirməyə, Prezident İlham Əliyevlə görüşməyə hazır olduğunu bildirir. Halbuki, o, belə vədləri bundan əvvəl çox verib. Ancaq vədlər verməklə məsələlər həll olunmur, gərək verdiyin sözü ucuz tutmayasan, mövqeyində ardıcıllıq nümayiş etdirəsən. Bunu isə indi telefonun dəstəyindən asılı qalan, zəhlətökən zəngləri ilə hamını bezdirən Ermənistan liderindən gözləməyinə dəyməz.

*Mübariz FEYİZLİ*

# Milli Məclisdən Kanada Parlamentinə

## Qondarma Dostluq Qrupunun bəyanatı Kanadanın mövqeyinə ziddir

*Günel ABBASOVA*

Ötən günlərdə Kanada Parlamentində Qondarma "Kanada-Artsax Dostluq Qrupu" təxribata yönəlik bəyanat vermişdi. Sözügedən bəyanata Azərbaycan Parlamenti də öz münasibətini bildirərək Kanada Parlamentini bu cür böhtançı çıxışlara qarşı ayıq olmağa çağırıb.

Azərbaycan-Kanada parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Mahir Abbaszadə "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, Ermənistanın dezinformasiya yaymaq və manipulyasiya cəhdləri son dövrlərdə daha da artıb: "Bu mənada, Kanada Parlamentində verilən "bəyanat"ın təxribat xarakterli olması təəccüblü deyil. Biz Azərbaycan-Kanada Parlamentlərarası əlaqələr üzrə işçi qrupu olaraq, Kanada Parlamentində Qondarma "Kanada-Artsax Dostluq Qrupunun" verdiyi sonuncu bəyanatla bağlı öz dərin hiddətimizi bildiririk. Kanada Parlementində qondarma qrup tərəfindən verilən bəyanat Azərbaycanın suveren hüquqlarına açıq- aşkar hörmətsizlik edərək, beynəlxalq hüququn norma və prinsiplərinə ziddir.

Təəssüf doğuran başqa bir məqam da budur ki, bu bəyanat Kanada Parlamentində yaradılmış və mövcud olmayan qondarma qurumun "Dostluq Qrupu" adından verilib".



M.Abbazadə qeyd edib ki, Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri apardığı, regionda sülh və təhlükəsizliyin təmin olunması istiqamətində səylər göstərdiyi halda, Qarabağ regionundakı etnik ermənləri girovluqda saxlayan separatçı ünsürlər və onları dəstəkləyən revanşist qüvvələr, həmçinin Ermənistan və onların havadarları bu səyləri pozmaq üçün gecə-gündüz çalışırlar: "Azərbaycan Qarabağda yaşayan etnik ermənilərlə müzakirələr aparmaq, eləcə də həmin erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyasını asanlaşdırmaq üçün xüsusi nümayəndə təyin edib. O cümlədən Azərbaycan prezidenti cənab İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsində yaşayan etnik erməni sakinlərinin mədəni, dini, təhsil və bələdiyyə hüquqlarının qorunacağına zəmanət verib".

Azərbaycan-Kanada parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Kamran Bayramovun sözlərinə görə, Qarabağ bölgəsindəki separatçı rejim Azərbaycanın sülh və birgə yaşayışla bağlı təkliflərinə məhəl qoymur: "Hətta bu təkliflərin reallaşmasına-Azərbaycan Qırmızı Aypara Cəmiyyəti tərəfindən göndərilən ərzaq yardımlarının etnik ermənilərə çatdırılmasına mane olmaq üçün Ağdam-Xankəndi yolunu bağlayıb. Azərbaycanın açıq şəkildə irəli sürdüyü təkliflərdən biri də odur ki, Ağdam-Xankəndi yolu açıldığı təqdirdə, Laçın yolu da işlək vəziyyətə salınacaq. Bu təklif təkcə Azərbaycan tərəfindən deyil, beynəlxalq tərəfdaşlar və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası çərçivəsində keçirilən son müzakirələrdə də təsdiqlənib".

Deputat bildirib ki, Azərbaycanın Qarabağ bölgəsindəki qondarma separatçı rejim Ermənistanın Azərbaycanın suveren ərazilərini işğalını və etnik təmizləməsini ört-basdır etmək üçün istifadə edilən və hazırda Ermənistan tərəfindən dəstəklənən bir alətdir: "Kanada Parlamentində verilən bu kimi bəyanat bir yana qalsın, ümumiyyətlə, Kanada Parlamentində belə bir qrupun olması, Kanadanın xarici siyasəti, beynəlxalq hüququn norma və prinsiplərində tutduğu mövqeyinə ziddir və biz də bunu doğru hesab etmirik. Kanada Parlamenti Ermənistanın bu cür təxribat xarakterli bəyanatlarına qarşı ayıq olmalı, regionda sülh prosesini, həmçinin parlamentlərimiz arasında dostluq münasibətlərinin qorunması üçün öz mövqeyini açıq şəkildə bildirməli və Parlamentdə münasibətlərimizə xələl gətirən addımların atılmasına yol verməməlidir".

# Yeni üçtərəfli platforma: Azərbaycan-Türkiyə-İsrail üçbucağı

**Azərbaycanın milli maraqlar üzərində qurulan məqsədyönlü xarici siyasət kursu multiregional səciyyə daşıyır. Ölkəmiz yaxın və uzaq coğrafiyalarda yerləşən dövlətlərlə qarşılıqlı maraqlar əsasında sıx təmaslar qurmaqla özünün beynəlxalq əlaqələrini getdikcə genişləndirir. Respublikamızın müxtəlif sahələrdə sıx təmaslar qurduğu ölkələr sırasında Türkiyə və İsrail xüsusi yer tutur. Hazırda Azərbaycan - Türkiyə - İsrail üçtərəfli platformasının yaradılması gündəmə gəlib. “Azərbaycanın üçtərəfli formatda əməkdaşlığımızı gücləndirmək təklifi var, belə ki, Azərbaycan, Türkiyə və İsrail qarşılıqlı fəaliyyət göstərə bilər”. Bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrailin beynəlxalq “I24NEWS” telekanalına müsahibəsində deyib.**

## İkitərəfli əməkdaşlıqda yeni səhifələr

Dünyada Azərbaycan və Türkiyə qədər hər cəhətdən bir-birinə yaxın olan digər iki dövlət tapmaq çətindir. Ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinə əsaslanan əlaqələr zamanın sınağından uğurla çıxıb və indiyədək heç bir kənar qüvvə bu əlaqələrə hansısa bir formada zərər vura bilməyib. Azərbaycan-Türkiyə münasibətləri çoxşaxəli səciyyə daşıyaraq həyatın bütün sahələrini əhatə edir. Türkiyə və Azərbaycan qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək eyni mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi ilə yanaşı, həmçinin BMT, ATƏT, Avropa Şurası, TDƏŞ, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla, beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək verirlər.

Eyni zamanda, iki qardaş ölkə arasında münasibətlərin hüquqi əsasları da getdikcə möhkəmləndirilir. İki qardaş ölkə arasında 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi ilə müttəfiqlik münasibətlərində yeni bir səhifə açılıb. Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bəyannamədə tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərilməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur.

Azərbaycanla İsrail arasında da münasibətlər uğurla inkişaf edir. İsrail müstəqilliyimizi tanıdığı 1991-ci il dekabrın 25-dən sonra Azərbaycan ilə bu dövlət arasında münasibətlər həmişə müsbət, qarşılıqlı anlaşma ruhunda olub. Azərbaycanda əsrlər boyu  təqribi 2600-2700 ilə yaxındır ki, yəhudilər yaşayırlar. Yəhudilər Azərbaycanda hər zaman mehriban və dostluq şəraitində öz həyatlarını qurublar. Burada heç bir zaman antisemitizm  yəhudi təqibi olmayıb. Hazırda İsraildə 100 min nəfərə yaxın Azərbaycandan köçmüş yəhudi icması var. Bu kifayət qədər böyük bir rəqəmdir. Bu icmada təmsil olunanlar İsrailin hər yerində azərbaycançılıq təbliğatı aparırlar.



Onlar ermənilərin törətdiyi Xocalı soyqırımından tutmuş bütün erməni vandalizmini dünyaya çatdıraraq Azərbaycan naminə fəaliyyət həyata keçirirlər. İkinci Qarabağ müharibəsindən dərhal sonra Azərbaycanın YAŞAT Fondu İsraildən oftalmoloqlar dəvət edib və gələn həkimlər mütəmadi olaraq pasiyentləri nəzarətdə saxlayıb. Onlar əməliyyatları və sonrakı müalicəni tamamilə pulsuz həyata keçiriblər. İsrail həkimləri 150-dən çox azərbaycanlı müharibə veteranını əməliyyat ediblər.

Cari ilin mart ayında İsrailin Təl-Əviv şəhərində Azərbaycan səfirliyinin açılış mərasimi baş tutdu. Bununla da Azərbaycanın İsraillə indiyədək siyasi, iqtisadi, hərbi, humanitar və digər sahələrdə inkişaf edən əməkdaşlığı keyfiyyətcə yeni bir mərhələyə qalxmış oldu.

Həm Türkiyə, həm də İsraillə yüksəksəviyyəli münasibətlər quran Azərbaycan, həmçinin bəhs olunan iki ölkənin bir-birinə yaxınlaşmasına da böyük səy göstərir. Bir neçə il bundan əvvəl İsraillə Türkiyə arasında yaşanan gərginliyi yada salaq. Bəzi güc mərkəzləri bu gərginliyi artırmağa çalışır və məqsədli şəkildə yanan odun üstünə yağ tökürdülər. Azərbaycan əsl dost kimi davrandı və böyük səylər ortaya qoymaqla Türkiyə ilə İsrail arasında münasibətlərin normal istiqamətə yönəlməsinə  vəsilə oldu.

## Azərbaycanın dost təklifi

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bəhs olunan müsahibəsində bildirib ki, əməkdaşlığın inkişafı üçün ikitərəfli əlaqələr, yüksək səviyyəli səfərlər çox vacibdir. Fikirlərinə davam edən Hikmət Hacıyev deyib: “İsrailin hazırkı Baş naziri və Prezidenti, eləcə də ölkənin bir sıra nazirləri Azərbaycanda səfərdə olublar. Bununla yanaşı, Azərbaycan Nazirlər Kabinetinin nümayəndələri, yüksək vəzifəli şəxslər mütəmadi olaraq İsrailə səfər edirlər. İki ölkə hökumətləri arasında münasibətlərin belə dinamikası və yüksək səviyyəli rəsmi səfərlər Azərbaycan ilə İsrail arasında əməkdaşlığın mühüm tərkib hissəsidir”.

Müsahibə zamanı Azərbaycan Prezidentinin köməkçisi Prezident İsxak Hersoqun Azərbaycana səfərini xatırladıb: “Biz bunu yüksək qiymətləndiririk”

Hikmət Hacıyev İsrailin beynəlxalq “i24NEWS” telekanalına müsahibəsində onu da bildirib ki, Azərbaycan İsrail və Türkiyə ilə yeni üçtərəfli əməkdaşlıq formatını təklif edir: “Dostlarımızın bir-biri ilə dost olması Azərbaycan diplomatiyası üçün çox vacibdir. Buna görə də Azərbaycan Türkiyə ilə İsrail arasında dostluq və qarşılıqlı anlaşmanın davam etdirilməsindən məmnundur. Azərbaycan eləcə də iki tərəfdaşı arasında dialoqun və daha yaxşı anlaşmanın inkişaf etdirilməsi prosesinə öz töhfəsini verir”.

*MÜBARİZ*

# Laçın yolu açıqdır...



## Buradan yüklərin keçidi Azərbaycanın gömrük və sərhəd rejimi qaydalarına riayət edilməklə reallaşa bilər

Məğlub Ermənistan sülh prosesini dalana salmaq məqsədilə hiyləgər gedişlər edir və müxtəlif siyasi manipulyasiyalara əl atır. Belə siyasi manipulyasiyalarından biri də guya Azərbaycanın Laçın-Xankəndi yolunu bağlaması ilə bağlıdır. Ermənistan, həmçinin bu ölkənin dəstək verdiyi separatçı rejim guya Azərbaycanın bəhs olunan yolu bağlamaqla Xankəndidə yaşayan erməniləri “humanitar böhranla” üz-üzə qoyduğu barədə feyk məlumatlar yayırlar. Bu əsassız iddiaları möhkəmlətmək məqsədilə Ermənistan içərisinə humanitar yük doldurulduğu iddia olunan TIR-ları Azərbaycanın iki ölkə arasındakı şərti sərhəddə - Həkəri çayı üzərində cari ilin aprel ayında qurduğu sərhəd-buraxılış məntəqəsinin yaxınlığına göndərib. Təbii ki, Azərbaycan ölkəmizin razılığı alınmadan göndərilən bu yüklərin sərhəd-buraxılış məntəqəsindən keçməsinə icazə vermir.

Əslində, ermənilər bu dəfə də öz xislətlərinə uyğun qaydada yalana və böhtana əl atırlar. Məlumdur ki, Ermənistan və separatçı rejim Laçın-Xankəndi yolunu manipulyasiya predmetinə çevirməyə cəhdlər göstərirlər. Cari ilin iyun və iyul aylarında burada Ermənistan tərəfindən təxribatlar törədildi. Əvvəlcə Azərbaycan hərbçiləri qarşı tərəfdən atəşə tutuldu, bir hərbçimiz yaralandı. Sonra isə ermənilər butradan qaçaqmal keçirməyə cəhd göstərdilər. Təbii ki, Azərbaycan hər iki təxribatın qarşısını almaq üçün öz suveren hüquqları çərçivəsində tədbirlər gördü və bu qəbildən olan tədbirlər hazırda da davam etdirilir.

Ermənistanın və separatçı rejimin təxribatlarına rəğmən, Azərbaycanın Laçın-Xankəndi yolunu bağlamaq kimi bir niyyəti yoxdur. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Politico” nəşrinə müsahibəsində ölkəmizin mövqeyinə bir daha aydınlıq gətirib. O bildirib ki, Laçın yolu açıqdır, ancaq yüklər Ağdam yolu ilə daşınmalıdır.

Laçın-Xankəndi yolunun açıq olduğunu son günlərdə “Laçın” sərhəd-buraxılış məntəqəsindən təqdim olunan video görüntülər də təsdiqləyir. Həmin videolardan da göründüyü kimi, Azərbaycanın müvafiq xidmətlərinin əməkdaşları sərhəd-buraxılış məntəqəsindən keçərkən ermənilərlə mədəni davranır, heç bir qanun pozuntusuna yol vermirlər. Aydın məsələdir ki, keçid zamanı qanunvericiliyə uyğun qaydada yoxlamalar da aparılır.

Azərbaycan tərəfinin dəfələrlə vurğu etdiyi kimi, Laçın-Xankəndi yolu razılaşma əldə edildikdən sonra müəyyən şərtlərlə fəaliyyət göstərəcək. Qeyd etdiyimiz kimi, hazırda emənilərin Laçın-Xankəndi yolundan humanitar məqsədlər üçün gediş-gəlişləri təmin olunur. Bu yolla yüklərin daşınmasına gəldikdə isə burada Azərbaycan yenə də suveren hüquqları çərçivəsində yanaşma ortaya qoyur. Prezident İlham Əliyev ölkəmizin prinsipial mövqeyini bir qədər bundan əvvəl Fransa perezidenti Emmanuel Makronla baş tutan telefon danışığında aydın şəkildə bəyan edib. Dövlətimizin başçısı deyib ki, Ağdam-Xankəndi yolu açıldıqdan sonra Azərbaycanın gömrük və sərhəd rejimi qaydalarına riayət etməklə Laçın-Xankəndi yolundan istifadə edilə bilər.

*M.ABDULLAYEV*

# Təxribatlar...

## Səngimək bilmir

*Yeganə BAYRAMOVA*

Regionda sülhün və təhlükəsizliyin təmin edilməsi ən vacib məsələlərdən biridir. Xüsusilə, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması beynəlxalq birliyin diqqət mərkəzindədir. Bu məqsədlə indiyə qədər bir sıra görüşlər keçirilib, bəyanatlar imzalanıb. Lakin hər görüşdən və razılaşmalardan sonra erməni tərəfi müxtəlif təxribatlara əl atır. Bu yanaşma Ermənistan üçün artıq ənənə halına çevrilib.

Avqust ayından etibarən Ermənistan silahlı birləşmələrinin təxribatları səngimək bilmir. Təxribatlar sentyabr ayında da davam edir. Belə ki, sentyabrın 1-də Ermənistan silahlı bölmələrinin Basarkeçər rayonunun Zod yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən açılan atəş nəticəsində hərbi qulluqçumuz Tağıyev Məhəmməd Ramiz oğlu yaralanıb. Daha sonra Ordumuzun Kəlbəcər rayonu ərazisində yerləşən mövqelərinə qarşı zərbə PUA-sı tətbiq edilib. Nəticədə daha iki hərbi qulluqçumuz yaralanıb.

Sentyabrın 2-si saat 11:00 radələrində Ermənistan Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini 60 və 82 millimetrlik minaatanlardan, saat 12:58-də Naxçıvan Muxtar Respublikasının Culfa rayonu istiqamətində yerləşən mövqelərimiz atəşə tutulub.

Həmin gün Kəlbəcər rayonu istiqamətində yerləşən bölmələrimiz tərəfindən Ermənistana məxsus zərbə pilotsuz uçuş aparatı (PUA) aşkar edilib. Bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar edilən PUA xüsusi vasitələrin tətbiqi ilə hədəfə çatmadan zərərsizləşdirilərək ələ keçirilib.

Sentyabrın 3-ü saat 18:10 radələrində ərazimizdəki qeyri-qanuni erməni silahlı dəstələri Xocalı rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər. Saat 01:45-dək isə Ermənistan Daşkəsən rayonunun Astaf və Naxçıvanın Şahbuz rayonunun Şada yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərimizi müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Sentyabrın 4-ü saat 07:20-də Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi, saat 09:50-də Naxçıvanın Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimiz atəşə tutulub.

Ermənilərin növbəti təxribatı sentyabrın 5-i saat 19:35 radələrində olub. Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Ordumuzun Xocavənd rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Saat 21:35-dən 22:00-dək Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutulub. Saat 01:35-də isə Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimiz müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub.

Növbəti gün- sentyabrın 6-da saat 12:10 radələrində ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələri Laçın rayonu istiqamətində yerləşən mövqelərimizə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər. Saat 19:50-də Laçın rayonu istiqamətində yerləşən, saat 23:10-da Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimiz də atəşə tutulub.

**Səngər qazmağa cəhd edirlər...**

Sentyabrın 7-si saat 07:50 radələrində ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələri Kəlbəcər rayonu istiqamətində yerləşən mövqelərimizə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər. Saat 10:05 radələrində təxribat Ağdamda davam edib. Ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələri Ağdam rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər. Saat 12:35-dən 14:00-dək isə Xocavənd və Ağdam rayonları istiqamətlərində yerləşən mövqelərimizin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Təxribatlara son qoymayan Ermənistan silahli birləşmələri sentyabrın 8-i saat 13:35-dən 13:45-dək Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub. Bundan başqa, saat 14:00 radələrində ərazimizdəki qeyri-qanuni erməni silahlı dəstələri Ağdam rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər. Saat 19:05-də qeyri-qanuni erməni silahlı dəstələri Şuşa rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa, saat 00:25 radələrində də Ağdam rayonu istiqamətində yerləşən mövqelərimiz qarşısında yeni səngərlər qazmağa cəhd göstəriblər.

Sentyabrın 9-da təxribat saat 03:55-də Naxçıvanın Sədərək rayonu istiqamətində yerləşən mövqelərimizdə davam edib. Belə ki, həmin saatlarda mövqelərimiz atıcı silahlardan atəşə tutulub. Saat 17:25 radələrində qeyri-qanuni erməni silahlı dəstələri Füzuli rayonu istiqamətində yerləşən mövqelərimizdə təxribat törətmək məqsədilə yeni səngər yolları qazmağa, saat 19:15 radələrində Xocavənd rayonu istiqamətində yerləşən mövqeləri qarşısında yeni səngərlər qazmağa cəhd göstəriblər. Saat 23:40 radələrində Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimiz bir neçə dəfə atəşə tutub.

Sentyabrın 10-u saat 09:45 radələrində qeyri-qanuni erməni silahlıları Füzuli rayonu istiqamətində yerləşən mövqelərimiz qarşısında yeni səngərlər qazmağa cəhd göstəriblər.

Sentyabrın 11-i saat 01:00 radələrində isə Ağdam rayonu istiqamətində yerləşən mövqelərimiz qarşısında yeni səngərlər qazmağa cəhd göstəriblər. Saat 13:30-da Gədəbəy rayonunun Novoivanovka yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimiz atəşə tutulub.

# Mina terroru davam edir...

## Daha bir hərbi qulluqçumuz yaralanıb

*Günel ABBAS*

Son dövrlərdə Qarabağ iqtisadi rayonundakı Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin ərazilərimizə kütləvi şəkildə yeni minalar döşəməsi, bununla da Azərbaycana qarşı mina terroru siyasətini davam etdirməsi müşahidə edilməkdədir.

Müdafiə Nazirliyindən verilən məlumata görə, sentyabrın 10-u saat 13:30 radələrində Azərbaycan Ordusunun hərbi qulluqçusu Eminov Xəyyam Mahal oğlu Ağdam rayonu ərazisində bölmələrimizin təminat yolunda qeyri-qanuni erməni silahlı dəstələrinin kəşfiyyat-diversiya qrupu tərəfindən təxribat məqsədilə basdırılmış piyada əleyhinə minaya düşərək xəsarət alıb. Bildirilib ki, ilk tibbi yardım göstərildikdən sonra yaralı hərbi qulluqçumuz dərhal hərbi tibb müəssisəsinə təxliyə edilib. Onun həyatı üçün təhlükə yoxdur. Hazırda mühəndis-istehkam bölmələri tərəfindən həmin ərazinin minalardan təmizlənməsi işləri aparılır.

Bölgədə mina problemindən zərərçəkənlərin sayı artmağa davam edir. İnsan hüquqlarının birbaşa pozulması kimi xarakterizə edilən bu vəziyyətdə Ermənistan hələ də lazımi instansiyalar qarşısında cavab vermir, yaxud hər hansı cavabdehliyə sövq edilmir.



Hadisə ilə bağlı Ombudsmanın da reaksiyası gecikməyib. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın Azərbaycan Ordusunun hərbi qulluqçusunun minaya düşməsi barədə reaksiyasında bildirib ki, Ermənistan silahlı qüvvələri və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Azərbaycan torpaqlarında basdırılmış minalar insanların həyatına təhlükə yaratmaqda davam edir.

“Təəssüf hissi ilə qeyd etmək istərdim ki, dəfələrlə tələb edilməsinə baxmayaraq, Ermənistan tərəfi minalanmış ərazilərin dəqiq xəritələrini ölkəmizə təhvil verməkdən hələ də boyun qaçırır. Beynəlxalq ictimaiyyətin, nüfuzlu beynəlxalq təşkilatların mina terroru ilə əlaqədar Ermənistana təsir göstərməməsi onların bu cür təxribatlar törətməkdə davam etməsinə, nəticədə çoxsaylı insan itkisinə və ya ağır xəsarətlərə səbəb olmaqdadır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili olaraq, Ermənistanın bu təxribatlarını qətiyyətlə pisləyir, beynəlxalq ictimaiyyəti hərbi qulluqçularımızın, eləcə də mülki şəxslərin həyatına təhlükə yaradan mina terrorunun qarşısının alınması və dəqiq mina xəritələrinin ölkəmizə təqdim edilməsi üçün Ermənistana təzyiq göstərməyə çağırıram”, - deyə S.Əliyeva vurğulayıb.

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, bu gün Azərbaycan dünyada ən çox mina çirklənməsinə məruz qalan ölkələrdən biridir: “Mina ilə çirklənmiş digər bölgələrdən fərqli olaraq Azərbaycan ərazilərinin minalanması Ermənistanın dövlət siyasəti çərçivəsində həyata keçirilib. Eyni zamanda proses hazırda da bu və ya digər formada davam edir. Belə ki, müharibədən sonra işğaldan azad olunmuş ərazilərimizdə 2021-ci il Ermənistan istehsalı minaları aşkar etməyimiz İrəvanın müharibə cinayətlərindən könüllü şəkildə imtina etmək niyyətində olmadığını göstərir. Digər tərəfdən, üzərinə öhdəlik götürməsinə baxmayaraq Ermənistan dəqiq mina xəritələrini hələ də təqdim etməməklə 2020-ci ilin noyabrından etibarən 300-dən çox insanın davam edən müharibə cinayətlərinin qurbanına çevrilməsinə səbəb olub”.

Ç.Qənizadə beynəlxalq ictimaiyyətin hələ də lazımi səylər göstərmədiyini qeyd edib: “İri güclərin heç biri tərəfindən Ermənistanın mina xəritələrini təhvil verməsinə dair çağırış almırıq. Ayrı-ayrı psevdo siyasilərin müdafiəsinə qalxan Avropa Parlamenti bir dəfə də olsun 2 ildə 300-dən çox insanın mina qurbanına çevrilməsini gündəmə gətirməyib. Əksinə, Fransanın, Avropa Birliyinin simasında biz ləyaqətsiz formada çağırışlar eşidirik ki, Azərbaycan Laçın yolunu hərbi daşımalar üçün açsın və Ermənistan, İran və digərləri separatçılara yeni istehsal minalar daşısın və onlar da Azərbaycan ərazilərini minalasınlar. Bu açıq formada terrora və müharibə cinayətlərinə dəstəkdir”.

# Tahir Budaqov YAP-ın Çinə səfər edəcək nümayəndə heyəti ilə görüşüb



Sentyabrın 8-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov partiyanın 2023-cü il 11-19 sentyabr tarixlərində Çin Xalq Respublikasında (ÇXR) səfərdə olacaq gənclərdən ibarət nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan-Çin münasibətlərinin dostluğa və tərəfdaşlığa əsaslandığını vurğulayan Tahir Budaqov qeyd edib ki, iki ölkə arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şərait və etibarlı zəmin mövcuddur. Azərbaycan-Çin münasibətlərinin hər iki ölkənin liderləri - Prezident, partiyamızın Sədri cənab İlham Əliyev ilə ÇXR-in və Çin Kommunist Partiyasının Sədri Si Cinpinin siyasi iradələri sayəsində dinamik inkişafa malik olduğunu diqqətə çatdıran YAP Sədrinin müavini ölkələrimizin ikitərəfli və beynəlxalq platformalar çərçivəsində münasibətləri inkişaf etdirərək əhəmiyyətli nailiyyətlər qazandıqlarını vurğulayıb.

Ötən il Səmərqənddə Prezident İlham Əliyev ilə Si Cinpinin görüşünün əhəmiyyətindən bəhs edən Tahir Budaqov yeni geostrateji reallıqlar fonunda Azərbaycan-Çin əməkdaşlığının inkişafının hər iki dövlət üçün prioritet olduğunu qeyd edib. Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən sonra yaranmış yeni reallıqlardan söz açan YAP Sədrinin müavini postmüharibə dövründə bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət edən təşəbbüslərin önəmini diqqətə çatdırıb. Qeyd olunub ki, Zəngəzur dəhlizinin reallaşdırılması və Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsi çərçivəsində işbirliyi yeni çoxtərəfli əməkdaşlıq platformasının formalaşmasını təmin edəcək.

YAP Mərkəzi Aparatının rəhbəri Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin mühüm rolunun olduğunu diqqətə çatdırıb. Tahir Budaqov Azərbaycan Prezidenti İlham Əliyev ilə ÇXR-in Sədri Si Cinpinin siyasi iradələrinə uyğun olaraq YAP ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində mühüm addımların atıldığını vurğulayıb. YAP Sədrinin müavini hakim partiyaların fəal dialoqunun xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, çoxşaxəli əməkdaşlığın dərinləşməsinə və bütövlükdə Azərbaycan-Çin münasibətlərinin inkişafına təkan verdiyini, qarşılıqlı səfərlərin bu baxımdan xüsusi önəm daşıdığını bildirib.

Cari ilin may ayında YAP nümayəndə heyətinin Çin Xalq Respublikasında səfərdə olduğunu və yüksəksəviyyəli, məhsuldar görüşlər keçirdiyini, istər Azərbaycan-Çin münasibətləri, istərsə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında çoxşaxəli əməkdaşlığa dair ətraflı fikir mübadiləsinin aparıldığını xatırladan Tahir Budaqov pandemiyadan sonra ÇXR-ə rəsmi səfərə dəvət edilən ilk nümayəndə heyətinin məhz Yeni Azərbaycan Partiyasından olmasını dostluq və tərəfdaşlıq nümunəsi kimi dəyərləndirib: "Həmin səfər çərçivəsində partiyalarımız arasında təmasların intensivləşdirilməsi, əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi ilə əlaqədar geniş müzakirələr aparıldı. Qarşılıqlı səfərlərin davam etdirilməsinə, o cümlədən partiyalarımızı təmsil edən gənclər arasında əlaqələrin sıxlaşdırılmasına dair önəmli təklif və təşəbbüslər irəli sürüldü. 2023-cü il 11-19 sentyabr tarixlərini əhatə edəcək səfər məhz bu əməkdaşlığın mühüm tərkib hissəsidir. Səfər çərçivəsində nümayəndə heyəti önəmli görüşlər keçirəcək, o cümlədən bir sıra tədbirlərdə iştirak edəcək. Bu, partiyalar arasında ikitərəfli və çoxşaxəli münasibətlərin inkişafı ilə əlaqədar atılan mühüm addımlardan biridir".

Tahir Budaqov YAP nümayəndə heyətinin ÇXR-ə səfər proqramının zəngin olduğunu diqqətə çatdırıb. YAP Mərkəzi Aparatının rəhbəri səfərin iki ölkənin hakim partiyalarının gəncləri arasında uğurlu əməkdaşlığın, davamlı ünsiyyətin təmin olunması, qarşılıqlı fikir və təcrübə mübadiləsinin aparılması və işbirliyinə dair yol xəritəsinin müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini qeyd edib.

Səfərin uğurlu keçəcəyinə inamını ifadə edən YAP Sədrinin müavini nümayəndə heyətinə müvafiq tövsiyə və tapşırıqlarını verib.

Nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycanla Çin Xalq Respublikası arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini bildirib. O qeyd edib ki, YAP nümayəndə heyətinin Çinə səfəri həm ölkələr, həm də partiyalararası əlaqələrin güclənməsinə töhfə verəcək. Z.Əsgərov səfərin məhsuldar olacağına əminliyini ifadə edib.

# YAP nümayəndə heyəti Çinə səfər edib



Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir.

Səfər çərçivəsində sentyabrın 11-də nümayəndə heyətinin Sincan-Uyğur Muxtar Vilayətinin (SUAR) Xalq Nümayəndələri Məclisinin Daimi Komissiyasının sədr müavini Mehmet Kadir ilə görüşü olub.

YAP nümayəndə heyətini salamlayan Mehmet Kadir Azərbaycan-Çin münasibətlərinin dostluğa və tərəfdaşlığa əsaslandığını, çoxşaxəli əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini söyləyib. O qeyd edib ki, iki ölkə arasında siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin inkişaf etməsi məmnunluq doğurur.

Çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların olduğunu diqqətə çatdıran Mehmet Kadir Çin və Azərbaycanın beynəlxalq məsələlərdə daim bir-birinə dəstək nümayiş etdirdiklərini söyləyib.

Mehmet Kadir Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında əməkdaşlığın, həmçinin gənclər arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən bəhs edib və səfərin bu baxımdan böyük önəm daşıdığını vurğulayıb.

Dəvətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycan ilə Çinin dost və tərəfdaş ölkə olduqlarını diqqətə çatdırıb, ölkəmizin Çinlə münasibətlərin inkişafına mühüm əhəmiyyət verdiyini söyləyib. 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin Çinə səfərini xatırladan Ziyafət Əsgərov bildirib ki, bu gün Azərbaycan-Çin münasibətləri hər iki ölkənin liderlərinin siyasi iradəsi ilə dinamik inkişaf edir. Z.Əsgərov qeyd edib ki, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Səmərqənddə keçirilən Sammiti çərçivəsində Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşü, "Bir Kəmər, Bir Yol" təşəbbüsünün üçüncü Beynəlxalq Əməkdaşlıq Forumunda iştirakı və digər mühüm amillər bu kontekstdə xüsusi vurğulanmalıdır.

Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanaraq ərazi bütövlüyünü bərpa etdiyini diqqətə çatdıran Z.Əsgərov bildirib ki, Azərbaycan Çinin ərazi bütövlüyünə, eləcə də Vahid Çin prinsipinə dəstəyini daim ifadə edib və hazırda da bu mövqe dəyişməzdir. Azərbaycanın Çinlə nəqliyyat-logistika sahəsində əlaqələrini dərinləşdirdiyini deyən nümayəndə heyətinin rəhbəri vurğulayıb ki, ölkəmiz Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə dəstəyini ifadə edib. Zəngəzur dəhlizinin reallaşdırılması isə qarşılıqlı faydalı işbirliyini daha da gücləndirəcək.

Z.Əsgərov söyləyib ki, qarşılıqlı səfərlər partiyalararası əlaqələrin inkişafına təkan verir. Nümayəndə heyətinin tərkibinin gənclərdən ibarət olduğunu diqqətə çatdıran Ziyafət Əsgərov Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətindən bəhs edib, Yeni Azərbaycan Partiyasının gənclərin inkişafına xüsusi diqqət və qayğı göstərdiyini bildirib. Səfərin məqsədinin Çin və Azərbaycan gəncləri arasında qarşılıqlı təcrübə və fikir mübadiləsinin, faydalı əməkdaşlığın təmin edilməsi olduğunu vurğulayıb.

Görüş başa çatdıqdan sonra nümayəndə heyəti mədəniyyət və turizm müəssisələrini ziyarət edib.

# Azərbaycan xalqı yeni əsrə Heydər Əliyev zəkasının işığında qədəm qoyub



Dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi çoxəsrlik tariximizin hər bir səhifəsinin vərəqlənməsində, Ümummilli Liderin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin geniş təhlilində və gənc nəslə çatdırılmasında əhəmiyyətli rola malikdir. Böyük qürur hissi ilə qeyd edirik ki, ulu öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Onun zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Ümummilli Liderin həyat amalının təntənəsidir.

Dövlət başçısı İlham Əliyev "Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur" fikirləri ilə hazırda tarixi zəfəri ilə yeni reallıqlar yaradan Azərbaycanın ən yüksək zirvələri fəth etməsində Heydər Əliyev-Xalq birliyinin, həmrəyliyinin rolunu açıqlayır. Məhz bu birlik Azərbaycanın bütün çətinliklərdən uğurla çıxmasını, hər bir hədəfə zamanında və yüksək səviyyədə nail olmasını şərtləndirdi. Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində yaşadıqlarını yada salaq. Ölkəyə səriştəsiz, idarəçilik qabiliyyəti olmayan, dövlət maraqlarını arxa plana keçirən ünsürlərin rəhbərlik etməsi ucbatından ölkəmiz müstəqilliyini itirmək, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdır. Bütün çətinliklərə, faciələrə baxmayaraq xalq sabaha olan ümidlərini itirmədi. Əmin idi ki, hər zaman xalqının yanında olan, doğma Azərbaycanını zirvələrdə görmək istəyən Ümummilli Lider yenə də xalqına, dövlətinə dəstək olacaq, zəngin idarəçilik təcrübəsindən istifadə edərək ölkəmizi düşdüyü ağır vəziyyətdən xilas edəcək və müstəqil dövlət kimi mövqeyini möhkəmləndirəcək. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev xalqın Ona olan bu inamını və etimadını doğrultdu, yeni Azərbaycan qurdu, onu inkişaf, tərəqqi yoluna çıxardı.

Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində yaşadıqları xalqın böyük əksəriyyətinin istəyini özündə ehtiva edən 91 nəfər ziyalının Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı dahi şəxsiyyət Heydər Əliyevə ünvanladığı "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətində də öz əksini tapmışdır. Həmin müraciətdə də belə bir inam ifadə edilirdi ki, Azərbaycanı düşdüyü bu ağır vəziyyətdə yalnız və yalnız ulu öndər Heydər Əliyev xilas edə bilər.

Dahi şəxsiyyət Heydər Əliyev həmin müraciətə "Yeni, müstəqil Azərbaycan uğrunda" cavabında Azərbaycanın müstəqilliyini tarixi nailiyyətimiz kimi dəyərləndirərək belə bir fikri də xüsusi qeyd etmişdir ki, bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər layiqli töhfəsini verməlidir. Ümummilli Lider həmin cavabında Azərbaycan dövlətinin, xalqının yaşadığı bu çətin vəziyyətə biganə qalmağa heç kəsin haqqı olmadığını bildirmiş və bu, inamı ifadə etmişdir ki, belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazırdır.

Göründüyü kimi, həm ziyalıların ulu öndər Heydər Əliyevə müraciəti, həm də dahi şəxsiyyətin bu müraciətə cavabı özündə xalq-Lider birliyini, inamını ehtiva edir. Yeni Azərbaycan Partiyası xalqın istəyi, zamanın tələbi ilə yaradılaraq məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ilk gündən ümumxalq partiyasına çevrildi. Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı həm ölkəmizin, həm də Yeni Azərbaycan Partiyasının həyatında yeni bir mərhələnin başlanğıcı oldu. Ulu öndər Heydər Əliyev bildirmişdir: "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir." Düşünülmüş və məqsədyönlü siyasəti ilə ölkədə daxili sabitliyi təmin edən Ulu Öndər Heydər Əliyev müstəqillik yolunda ilk addımlarını atan dövlətin qarşısında dayanan vəzifələri bəyan etdi. Sabitlik bütün inkişafın əsası kimi önə çəkildi. Ümummilli Liderin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs sazişinin imzalanması Azərbaycanda daxili sabitliyin təmin olunmasında, digər sahələrdə əhəmiyyətli addımların atılmasında mühüm rol oynadı. Məhz həmin il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bu mühüm addım Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirməklə yanaşı, xalqımızın uzun illərdən bəri ürəyində gəzdirdiyi istəyin reallığa çevrilməsi oldu. Daim öz təbii sərvətlərinin əsl sahibi olmaq arzusu ilə yaşayan Azərbaycan xalqı ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlarını gördükcə bundan daha da ruhlanır, gələcəyə böyük inamla addımlayırdı. Çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələrinin 2006 və 2007-ci illərdə reallığa çevrilməsi, bunun ardınca dünyanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunu artıran Cənub Qaz Dəhlizinin rəsmi açılışı, 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması, həmçinin Cənub Qaz Dəhlizinin əsas tərkib hissələri olan TANAP və TAP-ın istifadəyə verilməsi və sair kimi biri-birindən mühüm hadisələr "Əsrin müqaviləsi"nin ölkəmizə böyük uğurlar qazandırdığını bir daha təsdiqləyir. Azərbaycan iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələrinin gerçəkləşməsi ilə dünyanın enerji xəritəsini yenidən tərtib etdi. Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan ümummilli lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan neft gəlirlərinin şəffaf və ədalətli bölünməsini təmin etdi. Dövlət siyasətinin prioritetlərini müəyyənləşdirən Dövlət Neft Fondu şəffaflıq kriteriyalarına görə nümunəvi qurum kimi dəyərləndirilir. Fondun vəsaitlərinin düzgün istiqamətləndirilməsi və şəffaflığın təminatı əhəmiyyətli sosial-iqtisadi layihələrin həyata keçirilməsini sürətləndirir ki, bu da öz növbəsində ölkənin hərtərəfli inkişafına stimuldur.

Ümummilli Liderin iqtisadi və siyasi islahatların vəhdətini təmin etməsi uğurlarımızın davamlılığında öz sözünü dedi. 1995-ci il 12 noyabrda ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan və ümumxalq səsverməsi yolu ilə qəbul edilən Konstitusiyamızdan sonrakı mərhələ dövlətçiliyin möhkəmlənməsi, demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi dövrü kimi xarakterizə olunur. Azərbaycanın bu gün demokratiya təcrübəsinin digər ölkələrə nümunə göstərilməsi də daha şəxsiyyət Heydər Əliyevin Azərbaycanın gələcək inkişaf yolunun parametrlərini müəyyənləşdirərkən demokratik prinsipləri öndə saxlamasından irəli gəlir: "Müstəqil Azərbaycanda hüquqi demokratik dövlət qurulmalıdır, Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir və tarixi ənənələrindən, milli ənənələrdən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir."

Nizami ordunun yaradılması, xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması ulu öndər Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur. Ümummilli Lider Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Artıq tarixə qovuşan Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı zəfər qazanmaqla sübuta yetirmişdir.

Bu gün böyük inamla qeyd edirik ki, Azərbaycan dahi şəxsiyyətin yaratdığı möhkəm təməl üzərində uğurla inkişaf edir. Ümummilli Liderin dövlətimiz, xalqımız qarşısındakı xidmətləri davamlıdır. Bu baxımdan ki, dahi şəxsiyyət 2003-cü ildə xalqa tarixi müraciəti ilə Azərbaycanın bugünkü və gələcək uğurlarının əsasını qoydu. Ulu Öndər həmin tarixi müraciətində cənab İlham Əliyevə özü qədər inandığını bildirərək axıra çatdıra bilmədiyi işləri Onun axıra çatdıracağına əminliyini ifadə etdi.

2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyev Azərbaycan Prezidenti kimi jurnalistlərə ilk müsahibəsində "Sizcə, Sizi asan işlər gözləyir, yoxsa çətin" sualını cavablandırarkən bildirmişdir ki, həm asan, həm də çətin. Asan o mənada ki, artıq Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda, həyat yerində durmur. Yeni tələblər çıxır, qarşımızda yeni vəzifələr dayanır: "Əlbəttə, yəqin çətinliklər də olacaqdır. Amma mən bu çətinliklərə hazıram. Əgər mən özümdə belə bir hazırlıq görməsəydim, heç vaxt bu yola getməzdim. Mən məsuliyyətə də, çətinliklərə də hazıram. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Demişəm,Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam."

Azərbaycanın daha qüdrətli, zəngin dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdiriləcəyi vədini verən cənab İlham Əliyevin atdığı addımlara diqqət yetirsək xalqa arxalandığı, xalqı, dövləti üçün çalışdığı hər birimizdə böyük qürur hissi yaradır. Vətəndaş məmnunluğunun artırılması dövlətin siyasətinin əsasını təşkil edir. Bu baxımdan son 20 ilə yaxın dövrdə neft siyasətinin məntiqi davamı kimi dəyərləndirilən iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla həyata keçirilir. Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən "Neft kapitalını insan kapitalına çevirək!" tezisini irəli sürdü. Əsas hədəflərdən biri Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək, yüksək gəlirli ölkəyə çevirmək idi. İqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsi üçün regionların malik olduğu potensialdan maksimum istifadə etmək qarşıya mühüm vəzifə kimi qoyuldu. Bunun üçün Regional inkişaf Proqramları təsdiqləndi və uğurla icra edilir.

Günümüzün reallıqlarından da göründüyü kimi, ulu öndər Heydər Əliyevin "Neft- Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur" çağırışı bütün dövrlərdə öz aktuallığını qorumaqla yanaşı, dövlət siyasətinin əsasını təşkil edir. Dövlət başçısı İlham Əliyev ilk gündən bu çağırışı da etdi ki, sosial-iqtisadi göstəricilər təkcə rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapmalıdır. Həmçinin iqtisadi inkişafa uyğun olaraq sosial müdafiənin gücləndirilməsi fonunda əmək haqlarının ildə ən azı iki dəfə artırılması vacibdir. Xalq hər addımda özünə diqqət və qayğını görməkdən böyük məmnunluq hissi keçirir.

Dahi şəxsiyyət Heydər Əliyevin bu çağırışı da dövlətimizin siyasətində əsas yer tutur ki, Azərbaycanı təkcə müstəqil, zəngin təbii sərvətlərlə malik deyil, zəngin tarixi, mədəniyyəti olan ölkə kimi də tanıtmalıyıq. Ulu Öndər harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıları bir amal-azərbaycançılıq ideyası ətrafında sıx birləşməyə çağırdı. Öncə ayrı-ayrı dövlətlərdə Azərbaycan cəmiyyətləri, mərkəzləri yaradıldı. Sonra onların vahid mərkəzdən idarə olunmasını təmin etmək üçün 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I qurultayı keçirildi. Bu gün qürurla qeyd edirik ki, dünya azərbaycanlılarının birliyi, həmrəyliyi yüksək səviyyədədir, güclü, qüdrətli Azərbaycan hər birimizin qürur mənbəyidir. Bu birliyimiz, həmrəyliyimiz 44 günlük İkinci Qarabağ müharibəsində tarixi zəfərimizi şərtləndirən amillər sırasında xüsusi yer tutur. "Dəmir yumruq" birliyimizin, həmrəyliyimizin rəmzinə çevrildi. Ötən il Qarabağın tacı, bütün türk dünyasının mədəniyyət paytaxtı Şuşanın dünya azərbaycanlılarını 30 ildən sonra bir araya gətirməsi, yeni reallıqların qarşıya qoyduğu vəzifələrin məhz bu məkanda müzakirə edilərək dünyaya birliyimizin nümayişi qürurverici hadisələrdən oldu. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev "Hər dəfə Qarabağa və Şərqi Zəngəzura gələndə, ilk növbədə, hiss etdiyim qürur hissidir. Çünki xalqımla, Ordumuzla, qəhrəmanlarımızla fəxr etməmək mümkün deyil. Mən bilirəm, həmçinin siz də bilirsiniz ki, Şuşaya çatmaq üçün bizim qəhrəman əsgərlərimiz və zabitlərimiz zəfər yolunu necə keçiblər, yüngül silahlarla, qarşılarında topla, tankla, artilleriya ilə silahlanmış düşmənlə üz-üzə, bəzi hallarda əlbəyaxa döyüşlərdə ölümə necə gediblər. Azərbaycan xalqının ruhu necə də yüksəkdir. Yəni, bütün bunlar xalqımızı hər birimizə bir daha tanıtdı. Azərbaycan insanının necə yüksək mənəvi keyfiyyətlərə malik olmasını bir daha hər birimizə, ilk növbədə, bütün dünyaya göstərdi" fikirləri ilə xalqımızın yenilməzliyini, məğrurluğunu, torpağına sahib çıxmasını, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların hər birinin doğma Azərbaycan üçün çalışdıqlarını böyük qürur hissi ilə vurğulayır. İşğaldan azad edilmiş torpaqlarımızda dağılmış şəhərləri, kəndləri görməyin nə qədər ağır hiss olduğunu qeyd etməklə yanaşı, bu mühüm anı da diqqətə çatdırır ki, hər dəfə yeni bir inkişaf layihəsini görəndə, yaxud təməl mərasimində iştirak edəndə bu müsbət mənəvi enerji insanı fiziki cəhətdən də gücləndirir: "Təkcə, bax, bu bölgənin havası deyil, - mən əminəm, siz də eyni hissləri keçirirsiniz, - özümüzü Şuşada yaxşı hiss edirik, yaxud da ki, Zəngilanda, Laçında. Təkcə havaya görə deyil, daxildən gələn xoşbəxtlikdir. Xoşbəxtlik nədir, bir çoxları özünə sual verir. Amma hər dəfə bu inkişafı görəndə mən özümə deyirəm, yəqin ki, xoşbəxtlik, bax, budur."

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ulu öndər Heydər Əliyevin hər bir arzusunu reallığa çevirdiyi üçün özünü xoşbəxt hiss edir. Qarabağımız, Şərqi Zəngəzurumuz dirçəlir, soydaşlarımız mərhələli şəkildə doğma yurd-yuvalarına qayıdırlar. Bu qayıdışın tam şəkildə başa çatacağı gün uzaqda deyil.

Ümummilli Lider Heydər Əliyevin çağırışlarında belə bir istək də özünün aydın ifadəsini tapırdı ki, Göyçə mahalı, Zəngəzur deyəndə xalqımızın ürəyi ağrıyır, xalq o torpaqların arzusu ilə yaşayır. Dövlət başçısı İlham Əliyev dahi şəxsiyyətin bu arzusunun reallığa çevrilməsi istiqamətində mühüm addımlar atır. Belə ki, cənab İlham Əliyev ötən il doğum günündə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə tarixi ədalətə söykənərək böyük əminliklə qeyd etdi ki, biz Qərbi Azərbaycana qayıtmalıyıq.

Xalqımız tam əmindir ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın birgə səyləri, tarixi faktlara, real həqiqətlərə əsaslanan siyasətimiz, birliyimiz sayəsində bu hədəfə də nail olacağıq. Azərbaycanın hər bir uğuru, gələcəyə hesablanmış addımları Heydər Əliyev siyasətinin təntənəsidir. Bu yol Azərbaycana hər zaman möhtəşəm uğurlar qazandıracaq.



***Mirsüleyman Mirxaslı,***

**YAP Cəlilabad rayon təşkilatının sədri**

# Prezidentin çağırışları zəminində reallaşan “Azərbaycan dili və ədəbiyyatı” Forumu

Sentyabrın 1-3 tarixlərində Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə keçirilən “Azərbaycan dili və ədəbiyyatı” forumunu hansı tərəfləri ilə mütərəqqi addım hesab etmək olar? İlk növbədə, otuz il müstəqillik, üç il isə Zəfər təntənəsi ilə yaşayan ölkənin ədəbiyyat və dil siyasətinin bütün gücü və parametrləri ilə meydana çıxarılan mənzərəsini görükdürməyə müvəffəq olması ilə. Əlbəttə, son otuz ildə biz hər iki sahəyə dair məsələləri demək olar ki, mütəmadi olaraq aktuallaşdırmış, məqalə və kitablarımızın predmetinə çevirmişik. Amma forumda bu məsələlər daha sistemli və bitkin şəkildə, bütün yönləri ilə müzakirə müstəvisinə çıxarıldı. Biz nəinki gələcək üçün strateji hədəflər müəyyənləşdirdik, həm də son otuz ilin reallıqlarına nəzər yetirdik. Hansı sınaq və çətinliklərdən keçdiyimizi unutmayaraq keçdiyimiz tarixi yola nəzər saldıq. 1990-cı illərin fəci və dramatik prosesləri və bütün bu xaosun içində mədəniyyəti, elm və ədəbiyyatı güdaza vermədən qoruyan, Diri saxlamağı bacaran ümummilli lider Heydər Əliyevin əziz ruhunu qədirşünaslıqla yad eləməyi mənəvi borca çevirməklə. Elə forum da məhz “Heydər Əliyev İli” çərvivəsində keçirilirdi. Bundan əvvəl bu ilin aprel ayında reallaşan “Azərbaycan teatrı - 150: inkşaf perspektivləri” mövzusunda Teatr Forumu”, “Azərbaycan Kinosu - 125: Reallıq, Çağırışlar və Hədəflər” mövzusuna həsr olunmuş Kino Forumu və nəhayət, “Azərbaycan dili və ədəbiyyatı” forumu. Mənə elə gəlir ki, bütün bu mədəni gedişatlarda ən çox sevinən də elə Heydər Əliyevin ruhu oldu. Onun çox sevdiyim bir fikrini xatırlayıram. Müstəqillik illərinin əvvəllərində - həmin o qarışıqlıq və xaos dövründə Heydər Əliyevin söylədiyi bu ibrətamiz fikir onun bütün fəaliyyət xəttini dəqiq xarakterizə edir: “Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz”. Heydər Əliyev yalnız milli müstəqilliyi qazandığımız 1990-cı illərdə deyil, eləcə də hakimiyyətdə olduğu 1969-1982-ci illərdə - sovet epoxası daxilində ədəbiyyatı nəinki iqtisadiyyatın, eləcə də siyasətin, gücün ayağına vermədi. Bütün fəaliyyəti dövründə mədəniyyət və ədəbiyyata, onun müxtəlif dövrlərində yaşayıb-yaratmış ədiblərinə qədirşünas mövqedən yanaşan Heydər Əliyevin rəhbər kimi özəlliyi bəlkə də elə buradan başlayır. Milli düşüncənin intibahı, milli ruhu diri saxlamaq meyli onun tərcümeyi-halının ən işıqlı tərəfini təşkil edir. Bu kontekstdə onun obrazını necə xarakterizə etmək olar? Həm azərbaycançılıq ruhunu bütün siyasi-mənəvi aşamalardan bütöv və zədəsiz çıxaran böyük azərbaycanlı, həm də bütün dünya mədəniyyət və dəyərlərinə tolerant və multikultural aspektdən yanaşmağı bacaran dünya insanı! Heydər Əliyev üçün hər zaman əsas amal milli birlik, milli vəhdət olmuşdur. Onun azərbaycançılıq təliminin ana yapısında dayanan başlıca məqam elə bundan qaynaqlanırdı. İqtisadi coğrafiyanı böyük quruculuq işləriylə, mənəvi coğrafiyanı isə milli-mənəvi dəyərlərin Azərbaycana qaytarılmasıyla gerçəkləşdirən Heydər Əliyevin atdığı bütün addımlar milli məfkurənin gəlişməsinə imkan yaratmaq məqsədi güdürdü.



*Elnarə Akimova ,*
*YAP İdarə Heyətinin üzvü,*
*filologiya elmləri doktoru,*
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunda şöbə müdiri*

Sentyabrın 1-3 tarixlərində keçirilən “Azərbaycan dili və ədəbiyyatı” forumu görülən bu böyük, taleyüklü əhəmiyyət kəsb edən işlərin məntiqi nəticəsi idi. Zamanı gəlmiş, XX əsr dahisinin gördüyü misilsiz xidmətlər öz sözünü deməkdə idi. Forumu bu mənada, həmin qorunan dəyərlərdən zəmin alaraq, meydanda olan ədəbi-mədəni arsenalı daha qüvvətli şəkildə irəli aparmaq yönündə hansı işlər görmək olar niyyəti ilə hazırlanan dövlət proqramının bir hissəsi da adlandırmaq mümkündür. Bunu Mədəniyyət naziri Adil Kərimli də tədbirin Şamaxıda baş tutan açılış mərasimində xüsusi vurğuladı. Nazir bildirdi ki, Forumun təşkili Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən silsilə layihənin tərkib hissəsidir: “Belə forumların keçirilməsi cəmiyyətin inkişafı, mədəniyyətimizin zənginləşdirilməsi, gələcəkdə daha geniş üfüqlər açılması baxımından olduqca əhəmiyyətlidir. Azərbaycan Dili və Ədəbiyyatı Forumu mühüm mövzuların mütəxəssislərin iştirakı ilə müzakirəsi və əldə edilən nəticələri həyata keçirmək məqsədi daşıyır. Azərbaycan dili çox vacib sahələrdən biridir. Ümummilli lider hər zamanı ana dilimizi yüksək qiymətləndirib, onun qorunmasına, saflığının təmin edilməsinə, inkişaf etdirilməsinə önəm verib. Bu səbəbdən Azərbaycan Dili və Ədəbiyyatı Forumunun Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində keçirilməsi önəmlidir. Hazırda isə dövlətimizin başçısı İlham Əliyev tərəfindən Azərbaycan dilinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü davamlı tədbirlər, xüsusilə Azərbaycan dilinin saflığının qorunması, onun kənar təsirlərdən mühafizə olunması, dilin tərkibinin inkişaf etdirilməsi istiqamətində çoxşaxəli siyasət həyata keçirilir. Ulu öndər Heydər Əliyev hər zaman ana dilimizin - Azərbaycan dilinin inkişafına və təmizliyinə xüsusi diqqət yetirib. Bu gün bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Forumdan əsas gözləntilər problemləri ortaya çıxarmaq, onları müzakirə etmək və nəhayət, bu problemləri dövlət strategiyasında gələcək üçün nəzərə almaqdır”.

Bəli, məhz problemləri meydana çıxarmaq, müzakirə etmək və onların gələcək həlli üçün ən optimal şəkildə həllinə nail olmaq. Forumun əsas qayəsi bu məqsəd ətrafında birləşməyi təklif edirdi. İlk dəfə idi ki, forumda alternativ fikrə tribuna verilmişdir. Hər kəs fikir səsləndirməkdə, təklif irəli sürməkdə azad idi. Qeyd edim ki, forum öncəsi, avqustun 30-da Mədəniyyət Nazirliyində təşkil olunan toplantıda nazir Adil Kərimli keçiriləcək forumun dövlətin üzərində işlədiyi strateji bir mədəniyyət konsepsiyasının tərkib hissəsi olduğunu qeyd etdi və “sovet ənənələri ilə vidalaşmaq və mədəniyyətə yeni anlayışlar gətirmək” kimi ali məqsəd daşıdığını nəzərə çatdırdı. Burada əsas güc ölkənin elmi-intellektual potensialının üzərinə düşürdü, ya da hansı mənəvi-intellektual potensialdan yararlanmaq sualına cavab tapmaq üçün forum sadəcə təfəkkür aydınlarına verilən meydan idi.

Bu sırada bir məqamı qeyd etməyə ehtiyac var. Azərbaycan dili və Ədəbiyyatı Forumunun keçirilməsi “Azərbaycan mədəniyyəti 2020-2040-cı illərdə dövlət strategiyası”nın tərkib hissəsi kimi gerçəkləşdi. Forum dövlətin mədəniyyətimizə, ədəbiyyatımıza diqqət və qayğısının təzahürüdür. Son üç ildə Şuşada keçirilən Vaqif Poeziya günləri, bu təntənəli hadisə münasibətilə ədəbiyyat adamlarının bir araya gəlməsi, müxtəlif mədəni tədbirləri bölüşmələri ədəbiyyatın canlanması baxımından mütərəqqi addım sayılmalıdır. Əslində, burada mütərəqqi sayılan digər əsas amil Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyevin gerçəkləşdirdiyi müstəsna işlər, imza atdığı misilsiz qərarlardır. “Multikulturalizm İli”, “İslam həmrəyliyi İli”, “Azərbaycan Xalq Cümhuriyyəti İli”, “İmadəddin Nəsimi İli”, “Nizami Gəncəvi İli”, “Şuşa İli”, “Heydər Əliyev İli” - özündə böyük bir tarixi keçmişin ən dəyərli səhifələrini ehtiva edən bu qərarlarla ölkə başçısı mədəniyyətin inkişafına, tarixi yaddaşın bərpasına xidmət etdi. Elə son tarix - 2022-ci ildə ədəbiyyatla bağlı görülən əksər işlər daha çox verilən dörd sərəncamın icrasına köklənməklə gerçəkləşdi: Şuşanın 270, Xurşidbanu Natəvanın 190, Hüseyn Cavidin 140, Əhməd Cavadın 130 illiyi ilə bağlı müxtəlif humanitar instansiyalarda tədbirlər keçirildi. Şuşada “Natəvan günləri” (8-9 sentyabr 2022) tədbirindən tutmuş VIII Bakı Beynəlxalq Kitab Sərgisindəki təqdimatlara qədər hər kiçik nüansda belə adı keçən mövzular daha aparıcı sırada qərarlaşdılar. Danılmaz faktdır ki, onların yubileyləri ilə bağlı hazırlanan təqdimatlar, səslənən fikirlər istər-istəməz bu klassiklərin yaradıcılığına ayıq bir münasibət formalaşdırır, onları yeni nəslə tanıdır və ilk növbədə, klassikanı müasir ədəbiyyatla birləşdirməyə və həmin ədiblərin yaradıcılığına müasirlik prizmasından yanaşmada prinsipial mövqe ortaya qoyur. Bəli, Prezidentin verdiyi son qərarlar Qarabağla bağlı aparılan quruculuq işlərinə həm də mənəvi planda yanaşmaq, onun dəyərlərinin ehtiva olunduğu ən kiçik nüansı belə bədii-estetik yaddaşın məxəzinə çevirmək baxımından müstəsna missiya daşıyıcısıdır.

“Heydər Əliyev İli” çərçivəsində təşkil olunan “Azərbaycan dili və ədəbiyyatı” forumu da Prezidentin çağırışlarından zəmin alan böyük mədəni hadisədir. Bu forumun mahiyyətində ehtiva olunan sakral məna nə ilə bağlıdır?! Mədəni iqlimə köklənməyə gözəl bir vəsilə olmaqla bərabər, həm də maraq dairəsində olduğumuz indiki zamanda öz milli-mənəvi dəyərlərimizin ehtiva olunduğu məqamların tədqiqinə diqqət çəkmək, onların qorunmasına, sivil istiqamətlərdə inkişafını reallaşdırmağa çalışmaq. Bu forum bizim bir xalq, dövlət kimi varlığımızın siması - sənətin, kitabın və mədəniyyətin çağırışçısı statusunda tanıdılmağımız üçün unikal dəyər kəsb edir. Bunu reallaşdırmaq milli-mədəni və tarixi irsimizin qorunması və təbliğ olunması istiqamətində estetik bir dönəmin başlanması deməkdir. Bu forum ədəbiyyatımızın müxtəlif sahələri ilə bağlı bir sıra məqamlara geniş kontekstdə nəzər yetirməni yenidən gündəmə gətirdi. Priorotet istiqamətin ana dilimizin inkişafı, zənginləşməsi, saflığının qorunması olması isə mühüm simvolik çalar kəsb edir.

Aydındır ki, yeni dəyərlər sisteminə inteqrasiya edirik. Çətinlik və ağırlıqların olması təbiidir. Amma bütün hallarda bir məsələ mədəni siyasətimizin qayəsində dayanan prioritet məqam kimi nəzərə alınmalıdır. Etnomədəni sistemi qorumaq! Etnomədəni sistemi qoruyan amil, təbii ki, ana dilidir. Bura etnomədəni yaddaş amilini də əlavə etməliyik. Onu zədələmək millətin bütövlüyünü, milli kimliyini zədələyə bilər. Etnomədəni sistemi qorumaq qloballaşmanın xüsusən milli dil üzərindəki təhdidlərini dəf etməkdə də yardımçı olar. “Azərbaycan dili və ədəbiyyatı” forumu bu baxımdan böyük əhəmiyyət daşıyan, bəlkə də lazımlığı zaman keçdikcə aydınacaq bir hadisədir.

Beş panel iclasından ibarət olan forumda məsələlər “Qloballaşmanın Azərbaycan dilinə təsiri və Ana dilimizin saflığının qorunması mexanizmləri”; “Azərbaycan dili və ədəbiyyatı zaman kontekstində: klassik ənənələr və müasir trendlər”; “Teatr və kinonun inkişafında ədəbiyyat faktoru: əsərdən səhnəyə, səhnədən ekrana”; “Uşaq və yeniyetmələr arasında mütaliənin təbliği. Azərbaycan uşaq ədəbiyyatının vəziyyəti” və “Dəyərlər və etik davranış kodeksləri: kitabın fərdi və sosial həyatda əhəmiyyəti və funksiyaları” mövzuları ətrafında çıxış, müzakirəyə çıxarılan mövzular üzrə sual-cavabla davam etdi. Hər panel iclasının mövzusu ilə bağlı maraqlı təkliflər səsləndirildi: Azərbaycan dilinin təsir dairəsini daha da genişləndirmək üçün mexanizm işlənib hazırlanmasının vacibliyi, inteqrasiya zamanı dilimizə keçən sözlərin elmi əsasını tapmaq zərurəti, dilimizin elmi, fəlsəfi və intellektual ərazidə olan problemlərinin aradan qalxması üçün xarici ölkələrin elmi-kütləvi ədəbiyyatını dilimizə tərcümə edilməsinin əhəmiyyəti, nəşr olunan yeni ədəbiyyatın regionlara çatdırılmasında ciddi problemlərin aradan qalxmasının həlli yollarını axtarmaq, kitab sənayesi, yayım sahəsindəki problemlərin mövcudluğu, Azərbaycanın beynəlxalq ədəbi konvensiyalara qoşulmasının vacibliyi, Güney Azərbaycanda dilimizin və ədəbiyyatımızın problemləri, Azərbaycan tarixinin son dərəcə qiymətli dövrləri, şəxsiyyətləri haqqında sənədli dram əsərlərinin yazılmasının zəruriliyi, böyük fikir adamı Əli bəy Hüseynzadənin “Siyasəti-fürusət” əsərinin səhnələşdirilməsinin əhəmiyyəti, azyaşlıların mütaliəyə cəlb edilməsi yollarınının axtarılması, dərsliklərdəki ədəbi materialların uşaqların zövqünə və oxucu marağına yetərincə cavab verməməsi və s. Əlbəttə, bütün bu problemlər zamanla həllini tapacaq məsələlərdir. Forumun təşkili də bunları üzə çıxarmaq, qüsurların ehtiva olunduğu nöqtələri həssas bir şəkildə incələyib obyektivin fokusuna gətirmək niyyəti daşıyır. Əsas odur ki, meydanda azad fikir və ideyalar var. Azad fikirlərdən sonra isə mütləq azad əməllər gəlir.

Bütün bunlarla bərabər, forumun ən gözəl tərəflərindən biri fikir azadlığı və polemik ab-havaya malik olması idi. Əks halda, italyan yazıçısı Umberto Ekonun bir fikrini yada salmalı olacaqdıq: “Hamının eyni düşündüyü yerdə heç kəs düşünmür”. Əlbəttə, istisna etmirik ki, bu mübahisələrin içində “mən” davasının gətirdiyi şəxsi maraq və qərəz də var idi. Amma hər zaman dediyim bir fikir var. Bütün sahələrdə o zaman uğur qazanacağıq ki, “mən”dən “biz”ə keçməyi bacaracağıq. Çünki məhz, “biz”ə xidmət edilən məqamda ondan hər kəs öz nəsibini alacaq. Bu mənada, düşünürəm ki, forum mədəniyyətimizin gələcəyi üçün cızdığı strateji yol xəritəsində bu amili nəzərə alacaq və məhz, ədəbiyyatın, sənətin sabahını düşünənlərin təklif və tələbləri üzərindən yola çıxmaqla gerçəkləşən böyük mədəni hadisəyə çevriləcəkdir.

---

# Beşinci köç...

## Füzulidə məskunlaşanların sayı 441 oldu!

*Y.BAYRAMOVA*

Doğma torpaqlarımız düşmənin pəncələrindən artıq üç ilə yaxındır ki, azad olunub. Vətəndaşlarımız yavaş-yavaş 30 il əvvəl gözü yaşlı çıxdıqları dədə-baba torpaqlarına bu gün sevinc hissi ilə qayıdır. Qarabağda, sözün əsl mənasında həyat yenidən canlanıb. Görülən işlər, aparılan islahatlar bu gün özünü büruzə verir. Doğma torpaqlarımızın yenidən canlanması uzunmüddətli, lakin şərəfli bir yoldur. Ölkə başçımız üçün Qarabağdakı əhalinin hüquqlarını qorumaq və ərazi bütövlüyünü təmin etmək hər zaman prioritet olub. Qarabağ bölgəsində həyata keçirilən bərpa-quruculuq işləri regionda sabitliyin və inkişafın qorunmasına mühüm zəmin yaradır. Yeni sağlamlıq mərkəzləri, təhsil ocaqları, sosial təminat müəssisələri inşa edilir.



Dünən Füzuliyə növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 24 ailə - 92 nəfər köçürülüb. Bununla da Füzuli şəhərində 119 ailənin, yəni 441 nəfərin daimi məskunlaşması təmin edilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun qazandığı zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Daha da gözəlləşən və abadlaşan Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər. Füzulilər bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

**Sevincimizin həddi-hüdudu yoxdur...**

Füzuliyə qayıdan keçmiş məcburi köçkün Elnarə Həsənova təəssüratlarını bölüşüb: “Çox xoşbəxtik, sevincimizin həddi-hüdudu yoxdur. Çünki doğulduğumuz el-obamıza qayıdırıq. Bu gün Füzuli sakinlərinin otuzillik arzularının reallaşdığı gündür. Düzdür, yurd həsrəti ilə dünyadan köçən yaxınlarımız da oldu, amma bu gün onların ruhu şaddır.

Torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda çoxlu şəhidlər vermişik, sağlamlıqlarını itirənlər olub, onların haqqı ödənməz. Şəhidlərimizin, qazilərimizin sayəsində torpaqlarımızda azad və firavan yaşayacağıq”.

E.Həsənova həm məcburi köçkünlük dövründə, həm də hazırkı vaxtda onlara yaradılan şəraitə görə Prezident İlham Əliyeva və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib.

**Çətin günlər geridə qaldı**

Digər sakin Fəridə Əliyeva bildirib ki, bu gün 30 illik ayrılıqdan sonra öz yurdlarına qayıdan füzulililərin ən xoş günüdür: “Çünki bu gün yurd həsrəti sona çatır. Ermənilərin təcavüzü nəticəsində 37 yaşımda üç uşaqla Füzulidən köçməyə məcbur qalmışdıq. Çox çətin və məşəqqətli günlər idi. Sevinirik ki, həmin çətin günlər geridə qaldı, hazırkı vəziyyəti sözlə ifadə etmək çətindir”.

O, bildirib ki, Azərbaycan Ordusunun tarixi Qələbəsi hər zaman yaddaşlarda qalacaq, gələcək nəsillər tərəfindən fəxarətlə xatırlanacaq: “Biz xoşbəxtik ki, bu tarixin bir hissəsiyik və bundan sonra doğma yurdda - işğaldan azad edilmiş yerlərdə yaşayacağıq. Arzu edirəm ki, azad Azərbaycanın bayrağı hər zaman yüksəklərdə dalğalansın, düşmənlərimiz də baxıb xar olsunlar”.

Qeyd edək ki, bu, Füzuliyə beşinci köç karvanıdır. İlk köç avqustun 18-də baş tutub. Bu mərhələdə Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 23 ailə - 90 nəfər doğma yurduna qayıdıb. Avqustun 21-də 24 ailə (68 nəfər), avqustun 22-də 23 ailə (89 nəfər), sentyabrın 7-də 25 ailə (102 nəfər) dədə-baba torpaqlarına qovuşub.

---

# Humanitar fəaliyyət, yoxsa “xüsusi” missiya?

## BQXK geosiyasi oyunlara cəlb olunaraq müəyyən dairələrin əlində alətə çevrilib

*NARDAR*

Azərbaycan regionda sülh və sabitliyin təmin olunması üçün ardıcıl olaraq addımlar atır. Ermənistanın və onun havadarlarının Qarabağda “humanitar böhran” şousu isə vəziyyəti gərginləşdirməyə xidmət edir. Dövlətimiz Qarabağın erməni sakinlərinə humanitar yardımların çatdırılması üçün Ağdam-Xankəndi yolunu təklif edib. Eyni zamanda, Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən həmin yol vasitəsilə iki yük maşını humanitar yardım aparıb. Lakin Qarabağın erməni separatçıları həmin yardımdan imtina edərək yolu bağlayıblar. Separatçılar Rusiya Qızıl Xaç Cəmiyyətinin göndərdiyi bir yük maşınından ibarət humanitar yardımı da qəbul etməkdən imtina edir. Bu məsələdə müəyyən kənar qüvvələr Ağdam-Xankəndi yolunun açılmaması üçün pozucu fəaliyyət göstərirlər.

Xatırladaq ki, Rusiya Hökumətinin təşəbbüsü ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Rusiya Qızıl Xaç Cəmiyyətinin birgə əməkdaşlıq memorandumuna əsasən, Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərinin ərzağa olan ehtiyaclarının qarşılanması məqsədilə Rusiya Qızıl Xaç Cəmiyyəti tərəfindən Ağdam-Əsgəran yolu ilə Xankəndi şəhərinə çatdırılması üçün ərzaq və qeyri-ərzaq məhsulları yüklənmiş 1 tır Bərdə şəhərində gözləyir. Lakin Qarabağda qondarma rejimin qalıqları hələ də bu maşının keçidinə imkan vermirlər. Beynəlxalq Qızıl Xaç Komitəsi isə üzdə məsələni dəstəkləyən kimi görünsə də, arxa planda süni şəkildə onu əngəlləyir və Rusiyanın Qızıl Xaç Komitəsinə təzyiqlər göstərir. Qərb dairələri tərəfindən də Ağdam-Xankəndi yolu ilə bu yükün keçirilməsinə maneçilik törədilir. Qərb dairələri bu məqsədlə BQXK-dan istifadə edirlər. Belə görünür ki, “Qırmızı Xaç” geosiyasi oyunlara cəlb olunaraq Qərbin maraq və mənafelərini ifadə edir, onların əlində bir alətdir.

Laçın nəzarət-buraxılış məntəqəsi fəaliyyətə başladığı vaxtdan Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus nəqliyyat vasitələrinin dövlət sərhədindən hərəkətinə lazımi şərait yaradılıb, müvafiq qaydada sərhəd və gömrük nəzarətindən keçməklə dövlət sərhədindən buraxılıb. Lakin ötən müddət ərzində Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən BQXK-ya aid nəqliyyat vasitələrində dəfələrlə qanunsuz yolla müxtəlif növ qaçaqmalın keçirilməsi cəhdləri aşkarlanıb. Məsələ ilə bağlı BQXK-nin açıqlaması onların qanunsuz əməllərinə heç bir haqq qazandıra bilməz.

Ümumiyyətlə, BQXK-nin Azərbaycanın Qarabağ bölgəsində mövcud formatda fəaliyyəti üçün heç bir hüquqi və humanitar zəmin yoxdur. Hüquqi aspektdən yanaşsaq, 1949-cu il Cenevrə konvensiyaları, onun 1977-ci il protokolları və 2005-ci il Əlavə protokollarının iştirakçısı olan dövlətlər təsisata silahlı münaqişələrin qurbanlarını qorumaq üçün mandat verib. Belə bir vəziyyətdə, Beynəlxalq Qızıl Xaç Komitəsinin Xankəndi ofisinin təşkilatın İrəvan nümayəndəliyinə bağlı olması bütün hallarda beynəlxalq hüququn prinsiplərinin pozuntusu, Azərbaycanın suverenliyinə isə hörmətsizlikdir. BQXK Azərbaycanla imzalanan 1996-cı il sazişi ilə öhdəsinə götürüb ki, Azərbaycan Respublikasının dövlət mənafelərini nəzərə almalıdır. Ona görə də, təşkilatın Xankəndidəki ofisi İrəvana yox, Bakıya tabe olmalıdır. Eyni zamanda, onların fəaliyyəti Ağdam-Xankəndi yolu üzrə tənzimlənməlidir.

Görünən odur ki, BQXK ermənilərə dost dövlətlərin sifarişlərini yerinə yetirir. “Qırmızı Xaç” həm birinci Qarabağ müharibəsində, həm də 44 günlük Vətən müharibəsində azərbaycanlı əsir və girovlara lazımi dəstəyi verməyib. Bunun əksinə olaraq ermənilərə isə hər zaman isti münasibət bəsləyib. Onlar hər zaman bir qayda olaraq ermənilərin yanında olublar və bu sadiqlik bu gün də davam edir. BQXK Birinci Qarabağ müharibəsindən sonra tez bir zamanda Xankəndidə özünə ofis açdı və “aktiv” fəaliyyətə başladı. BQXK-nin Qarabağda fəaliyyət göstərən nümayəndələri arasında Azərbaycana dost olmayan ölkələrin də vətəndaşları var. Onların Qarabağdakı separatçılarla işbirliyində olması şübhə doğurmur. 44 günlük Vətən müharibəsində BQXK Azərbaycana qarşı qərəzli mövqe tutmuşdu və bu təşkilatın nümayəndələri yalnız Ermənistanı müdafiə edirdilər. Onlar qaynar nöqtələrə daxil olaraq hərbi məlumatlar toplayaraq düşmən tərəfə ötürürdülər. BQXK-ya məxsus yük və tibb maşınları ilə ermənilərə qaçaqmal, silah-sursat daşındığına dair dair çoxsaylı məlumatlar var. Bütün bunlar Azərbaycan Respublikasının qanunlarının kobud şəkildə pozulması faktıdır. Bu, həm də ölkəmizin beynəlxalq humanitar təşkilata olan etimadından sui-istifadədir.




Beləliklə, BQXK-nin kəşfiyyaçılıq fəaliyyəti həyata keçirməsi, informasiya toplayıb müəyyən mərkəzlərə ötürməsi də istisna deyil. Çünki təşkilat bu gün humanitar missiyadan çox, Qərbin müəyyən dairələrinin xüsusi tapşırıqlarını yerinə yetirən orqana çevrilib.

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər




**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.**
**2023-cü il sentyabrın 9-da YAP Biləsuvar rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Biləsuvar rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunaraq, önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.**
**Daha sonra Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib. Sonda xatirə fotosu çəkdirilib.**

# Azərbaycan-İran əlaqələri genişlənir

*Nardar BAYRAMLI*

Azərbaycanla İran arasında müxtəlif sahələr üzrə əlaqələr genişlənir. Bu baxımdan, iki ölkə arasında hərbi sahədə də əməkdaşlıq diqqət mərkəzindədir. Sentyabrın 9-da Azərbaycan-İran Birgə Komissiyasının görüşündə iştirak etmək məqsədilə general-mayor Məhəmməd Əhədinin rəhbərlik etdiyi İran İslam Respublikasının Silahlı Qüvvələrinin nüamyəndə heyətinin ölkəmizə səfər etməsi də bu faktı təsdiqləyir. Əvvəlcə iranlı qonaqlar Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.



## İranlı general Azərbaycanla dövlət sərhədinə ordu toplanması barədə məlumatı təkzib edib

Həmin gün Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov nümayəndə heyəti ilə görüşüb. Görüşdə general-polkovnik Z.Həsənov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərindən, eləcə də Azərbaycan-Ermənistan şərti sərhədi və Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraitindən danışıb. Müdafiə naziri son zamanlar Ermənistan silahlı qüvvələrinin bölmələri və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin törətdiyi təxribatların sayının artdığını və bu təxribatların qarşısının Azərbaycan Ordusunun bölmələri tərəfindən dərhal və qətiyyətlə alındığını xüsusi vurğulayıb.

Qonaqpərvərliyə görə minnətdarlığını bildirən general-mayor M.Əhədi İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqerinin salamlarını çatdırıb. Azərbaycan-İran əlaqələrinin qədim tarixi köklərə söykəndiyini və mehriban qonşuluq əlaqələrinin genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin vacibliyini qeyd edib. Azərbaycanın azad etdiyi ərazilərində həyata keçirdiyi bərpa-quruculuq işlərindən məmnunluğunu bildirən İran nümayəndə heyəti Ermənistanın bölgədə sabitliyə və təhlükəsizliyə təhdid yarada biləcək fəaliyyətlərindən narahatlığını ifadə edib.

Görüşdə ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik məsələləri, eləcə də maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan-İran Birgə Komissiyanın üzvlərinə fəaliyyətlərində uğurlar arzulayan general-polkovnik Z.Həsənov belə görüşlərin ikitərəfli hərbi əməkdaşlığımıza müsbət töhfələr verəcəyindən ümidvar olduğunu bildirib və onun da salamlarını İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisinə çatdırmağı xahiş edib.

Azərbaycan müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanov da ölkəmizdə səfərdə olan general-mayor Məhəmməd Əhədinin rəhbərlik etdiyi İran nümayəndə heyəti ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, nazir müavini iranlı qonaqları salamlayaraq dövlətlərimizin bir çox istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığının daha da inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu vurğulayıb. Baş direktor Birgə Komissiyanın ölkəmizdə keçirilən işçi görüşünün ikitərəfli hərbi əməkdaşlığa müsbət töhfələr verəcəyindən əminliyini ifadə edib.

Sonra Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikası Müdafiə Nazirliyi və İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı arasında hərbi sahədə əməkdaşlığa dair "Birgə komissiya"nın 3-cü iclası keçirilib. İclasda Azərbaycan ilə İran arasında hərbi sahədə əməkdaşlığın genişləndirilməsi, hər iki ölkənin hərbi nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili və digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

İclasda aparılan danışıqların nəticələri müzakirə edilib və hərbi sahədə əməkdaşlığın bir neçə istiqamətində münasibətlərin genişləndirilməsi ilə bağlı bir daha fikir mübadiləsi aparılıb.

İclasın yekun çıxışında son günlər bəzi qüvvələrin əsassız və yalan məlumat yaymaqla ölkələrimiz arasında mövcud olan dostluq və mehriban qonşuluq münasibətlərinə xələl gətirməyə cəhd göstərdiyini diqqətə çatdıran İran İslam Respublikasının Silahlı Qüvvələrinin nümayəndə heyətinin rəhbəri general-mayor Məhəmməd Əhədi bu baxımdan qarşılıqlı səfərlərin və işçi səviyyəsində keçirilən görüşlərin əhəmiyyətini vurğulayıb. Birgə Komissiyanın iclasında icra edilən tədbirlər yüksək qiymətləndirilib, ölkələrimiz arasında ikitərəfli, regional və beynəlxalq səviyyədə əməkdaşlığın inkişafı üçün yaxşı zəmin olduğu vurğulanıb.

**Sonda iclasın yekun protokolu imzalanıb.**

Diqqət çəkən məqamlardan biri də odur ki, İran Silahlı Qüvvələrinin nümayəndə heyəti ölkəmizə səfər çərçivəsində Hərbi Qənimətlər Parkını da ziyarət edib. Qeyd edək ki, nümayəndə heyətinin ərəfəsində bəzi xarici media qurumları İranın Azərbaycanla dövlət sərhədinə ordu toplaması barədə məlumat yayılmışdı. General-mayor Məhəmməd Əhədi isə Bakıda olarkən jurnalistlərə müsahibəsində bu məlumatı təkzib edib. O bildirib ki, İranın Azərbaycanla sərhədə qoşun toplaması barədə məlumat tamamilə əsassızdır.

İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasser Kənani də həftəlik mətbuat konfransı zamanı deyib ki, rəsmi Tehran Bakı və İrəvanla daim təmasdadır. Kənani bildirib ki, İranın mövqeyi aydın, sabit və şəffafdır: "İranın Qarabağ ilə bağlı mövqeyi heç kimdən gizli deyil. Qarabağ Azərbaycan Respublikasının bir hissəsidir və bu bölgənin sakinlərinin hüquqları və təhlükəsizliyi konkret çərçivədə müəyyən edilməli və təmin edilməlidir. Bu bizim aydın mövqeyimizdir".

# Qondarma "seçkilər" beynəlxalq səviyyədə pislənilir



*Nardar BAYRAMLI*

Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın işğalı nəticəsində yaradılmış qondarma rejimin "prezident seçkiləri" adı altında apardığı qanunsuz fəaliyyət ölkəmizin Konstitusiyası, qanunları və beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasıdır. Azərbaycan Xarici İşlər Nazirliyinin qanunsuz "seçkilər"lə bağlı bəyanatında bildirilir ki, ölkəmizin ərazisində siyasi iradənin seçki vasitəsilə ifadəsinin legitim əsasını yalnız Azərbaycan Konstitusiyası və qanunları təşkil edir. Azərbaycan ərazilərində yaradılmış qondarma separatçı rejim 30 ilə yaxın müddətdə davam etmiş təcavüz və etnik təmizləmə siyasətinin nəticəsidir. Azərbaycanın suveren ərazilərində yaradılmış və Ermənistanın hərbi, siyasi, maliyyə və digər dəstəyi sayəsində mövcudluğunu davam etdirməyə çalışan bu rejim tərəfindən atılan addımların heç bir qanuni qüvvəsi yoxdur.

Qeyd edilən addım Ermənistanın son dövrdə xüsusilə, kəskinləşən təxribatçı və təhrikedici fəaliyyətinin daha bir elementi olmaqla, bölgədə normallaşma və etnik erməni sakinlərin Azərbaycan Respublikasının konstitusion çərçivəsinə reinteqrasiya edilməsi səylərinə ciddi zərbədir. Qondarma "seçkilər"in keçirilməsi bir daha aydın şəkildə göstərir ki, status-kvonun saxlanılması, işğalçı siyasətinin davam etməsi üçün addımlar atan Ermənistan və onun yaratdığı qondarma rejim sülh prosesində həqiqətən maraqlı deyil və bunun əksinə, təxribat və vəziyyəti gərginləşdirmək yolunu tutub. Ermənistan öz xalqını və beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi daşıyan lüzumsuz cəhdlərindən əl çəkməli, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddialara son qoymalı, normallaşma prosesində konstruktiv şəkildə iştirak etməli və beynəlxalq öhdəliklərinə əməl etməlidir. Ermənistanın Azərbaycanın öz suveren ərazisində yaşayan etnik ermənilər ilə dialoquna maneə olması Azərbaycan Respublikasının daxili işlərinə kobud müdaxilə, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı qəsddir. Ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi və ərazi bütövlüyünə qarşı törədilən təhdidlərin qarşısını qətiyyətlə alacaqdır. Bölgədə sülh və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır.

Qeyd edək ki, qondarma "seçki günü" və ondan sonra da bir sıra ölkələr və beynəlxalq təşkilatlar qanunsuz bu rejimin məlum addımını pisləyiblər. Bu barədə ilk olaraq qardaş Türkiyə, Moldova və Ukrayna tərəfindən bəyanat verilib. Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında bildirilir ki, Türkiyə Azərbaycanın Qarabağ bölgəsində qondarma rejimin keçirdiyi "prezident seçkilərini" tanımır: "Türkiyə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün pozulmasını ifadə edən bu qanunsuz seçkiləri tanımır. BMT-ni və beynəlxalq ictimaiyyəti bu seçkiləri tanımamağa çağırırıq". Qeyd olunub ki, qondarma "seçkilər" beynəlxalq hüququn, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT-in prinsiplərinin pozulmasıdır.

Türkiyə XİN Azərbaycan və Ermənistanın sülh danışıqlarını davam etdirməyə çalışdığı bir vaxtda keçirilən bu "seçkiləri" pisləyib və onu danışıqları sarsıtmağa yönəlmiş addım kimi qiymətləndirib. "Türkiyə Azərbaycan və Ermənistan arasında sülh danışıqları prosesini dəstəkləyir və yaxın gələcəkdə uzunmüddətli sülh sazişinin imzalanmasının regionda sülh və sabitliyə mühüm töhfə verəcəyinə inamını qorumaqdadır", - deyə Türkiyə XİN bəyan edib.

Moldova və Ukrayna XİN-nin bəyanatlarında da həmin "seçkilər" pislənilir və onun əhəmiyyətsiz olduğu vurğulanır. Pakistan, Gürcüstan və Özbəkistan XİN-ləri də qanunsuz rejimin keçirdiyi qondarma "seçkiləri" tanımadıqlarını bəyan ediblər.

Bir sıra beynəlxalq təşkilatlar da Qarabağ separatçılarının addımını pisləyiblər. Məsələn, Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç bəyan edib ki, Xankəndidə qondarma "prezident seçkiləri"nin heç bir hüquqi əsası yoxdur: "Humanitar vəziyyət və beynəlxalq normalara hörmət əsasdır. Avropa Şurası gərginliyi azaltmağa, dialoqa başlamağa və sülhü bərpa etməyə çağırır. Avropa Şurası dəstək verməyə hazırdır".

Eyni zamanda, Avropa İttifaqı, Türk Dövlətləri Təşkilatı, TÜRKPA, İslam Əməkdaşlıq Təşkilatı və digər qurumlar da qondarma "seçkiləri" pisləyib. Bildirilib ki, Azərbaycanın müvəqqəti olaraq Rusiya sülhməramlılarının məsuliyyət zonasında yerləşən beynəlxalq səviyyədə tanınmış Qarabağ bölgəsində keçirilən qondarma "seçkilər" regionda beynəlxalq hüquqa zidd olan mövcud vəziyyəti birtərəfli qaydada legitimləşdirmək cəhdlərinin yeni təzahürüdür. Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün pozulmasına yönələn bu qeyri-legitim "seçkilər" tanına bilməz. Bütün bunlar regionda sülhə təhdiddir.

# İKT-nin inkişafının üstünlükləri

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişafı" istiqaməti üzrə hazırlanmışdır**



## Əsas məqsəd İKT-nin təhsilə vaxtında və səmərəli tətbiqidir

İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişaf etdirilməsi və yayılması bəşəriyyətin inkişafı üçün geniş imkanlar yaradır. Ölkəmizdə İKT-nin daha yüksək səviyyədə inkişafı üçün qarşımızda duran əsas vəzifələrdən biri də yeni informasiya texnologiyalarının təhsilə vaxtında və səmərəli tətbiqidir. Məlumdur ki, ilk addımlar məktəb səviyyəsində atılmalıdır. Düzdür, respublikamızda fəaliyyət göstərən bəzi özəl məktəbəqədər müəssisələrdə kiçikyaşlı uşaqlar kompüterlə tanışlığa başlayır, onların təlimində kompüter vasitəsilə aparılan məntiqi oyun və tapşırıqlarla rastlaşırıq. Amma kompüter biliklərinin əsası məhz orta məktəbdə qoyulmalıdır.

Ümumiyyətlə, məktəbəqədər yaşlı uşaqların kompüterdən istifadəsi onların sağlamlığı üçün çox təhlükəli ola bilər. Yalnız məktəbdə şagirdlərə bu sahə haqqında geniş məlumat verilməli, onların sərbəst şəkildə kompüterlərdə işləmələrinə şərait yaradılmalıdır. Əgər əvvəllər kompüterdə işləməyi bacarmaq kompüter savadı hesab olunurdusa, artıq bu indi ümumi savad hesab olunur. Kompüteri bilməyən üçün təhsil almaq, elmi yaradıcılıqla məşğul olmaq çətindir.

Təhsil eksperti Elçin Əfəndi "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, indi İKT yalnız təhsil prosesini təmin edən üsul deyil: "İKT məktəblinin müstəqil qavrama qabiliyyətini təmin etmək üçün yeni imkanlar açır. Bununla əlaqədar olaraq müəllimin rolu da dəyişir. Onun məqsədi məktəblilərdə qərar qəbul etmə bacarığını dəstəkləmək və inkişaf etdirmək, öyrənilən mövzuların məqsədini anlamaq və mühakimə etməkdir. Şagirdlərin fasiləsiz təhsilə yolu bir növ müəllimlərin fasiləsiz təhsilindən keçir. İKT-nin məktəb praktikasında istifadəsi ilə bağlı olaraq müəllimin rolu dəyişməlidir. Şagirdlərlə aparılan sorğular da tədrisdə İKT-nin istifadənin onlarda özünə inamı və fənnə marağı artırdığını sübut edir. Bildiyimiz kimi, sinifdəki şagirdlərin psixoloji durumu müxtəlifdir. Elə şagirdlər var ki, dərs zamanı onlar öz cavablarının səhv olduğunu düşünür, həmyaşıdlarından və müəllimdən utanaraq cavab verməkdən imtina edir və bununla da daha passiv vəziyyətə düşürlər.

Fərdi kompüter qarşısında əyləşən şagird isə artıq maşından çəkinmir, onunla kompüter arasında əks-əlaqə yaranır, özünün fikirləşdiyi cavabları kompüterə daxil edir, səhvlərini görür, onları kompüterin köməyi ilə düzəldir, mənfi emosiyalardan uzaq olur və nəticədə özünə inamı artır. Fərdi kompüterdən istifadə etdikdə hər bir şagird verilən mövzunu başa düşmədikdə izahatı təkrar izləmə imkanı əldə edir və onu dərk edənə qədər təkrarlayır".

İKT üzrə mütəxəssis Pərvin Əsədovun sözlərinə görə, İKT görmə vasitəsilə informasiya qəbulunun imkanlarını artırır: "Belə ki, gözlə görünməyən, rəng və formasını dəyişən əşyaların təsvirini reallaşdırır. Video və ya animasiyalar formasında olan tapşırıqların yaxşı mətn və gözəl musiqinin müşayiəti ilə verilməsi şagirdə güclü təsir edərək, onun bədii zövqünün inkişafına, materialı daha yaxşı mənimsəməsinə səbəb olur. Beləliklə, İKT nəinki insanın əqli imkanlarını inkişaf etdirir, həmçinin yeni inkişaf perspektivləri, yeni qlobal mədəniyyət sistemi yaradır və təhsilin keyfiyyətinin yüksəldilməsi üçün maraqlı imkanlar açır. İKT-nin təlimdə istifadəsi və təhsil şəbəkələrinin yaradılması təhsilin gələcək inkişafı üçün vacib şərtdir. Əvvəla, İKT-nin geniş tətbiqi müəllimin məqsəd və vəzifəsini daşıyır. İkincisi, məktəbdə təhsil mühitinin yaradılması təhsil biliklərində iştirak imkanı yaradır. Son nəticə olaraq müəllim və şagirdlər bilavasitə sinifdə dərs zamanı və virtual rejimdə birgə işləyə və ünsiyyətdə ola bilərlər.

İnformasiya və kommunikasiya texnologiyaları orta məktəb kursunda bütün fənlərin tədrisində geniş tətbiq olunur. İKT-nin kimya fənninin tədrisində tətbiq olunmasına da xüsusi maraq vardır. Orta məktəblərdə kimyanın tədrisi zamanı kompüter texnologiyalarından istifadə olunması belə bir nəticəyə gəlməyə əsas verir ki, yüksək təlim keyfiyyətinin əldə olunması üçün bu texnologiyadan həm materialın öyrədilməsi, həm də şagird nailiyyətlərinin qiymətləndirilməsi mərhələsində sistematik istifadə olunsun. Müxtəlif maddə molekullarının enerjisinin hesablanması, onların quruluşlarının nəzəri olaraq təyini üçün çoxlu sayda kompüter proqramları mövcuddur. Artıq müasir kimya laboratoriyalarını kompütersiz təsəvvür etmək mümkün deyil. İndiki dövrdə demək olar ki, bütün analiz üsulları kompüterlərin köməyi ilə həyata keçirilir".

Mütəxəssis qeyd edib ki, kompüter və proyektordan istifadə edilərək sinfin fəallaşdırma mərhələsində əvvəlki mövzular viktorina, müxtəlif oyunlar, frontal sorğular və s. şəkildə soruşula, problemin nədən ibarət olması, onun ətrafında tədqiqatların aparılması, hər bir şagirdin problem ətrafındakı mülahizələri, müəllimin hər bir fikrə münasibəti, ümumiləşdirmə və izahat isə slaydlar vasitəsilə həyata keçirilə bilər. Həmçinin dərs prosesi zamanı müəllim interaktiv dərslikdən, fərqli kimyəvi reaktivlərdən də istifadə edə bilər. Dərslərin tədrisi zamanı "Power Point" proqramından istifadə edərək müxtəlif proqramlarla hazırlanmış mövzular mətn, şəkil, sxem və ya videofayllar şəklində slaydlar vasitəsi ilə sinifdəki şagirdləri fəallaşdırmaq olar.

*Günel ABBAS*

# G20 G21-ə çevrildi

**9-10 sentyabr tarixlərində Hindistanın Yeni Dehli şəhərində "Bir dünya, bir ailə, bir gələcək" mövzusunda "Böyük İyirmilik" (G20) sammiti keçirilib. Sammitdə bir sıra qlobal məsələlər, o cümlədən iqlim dəyişikliyi, Ukraynadakı müharibə, beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub. Həmçinin Afrika İttifaqının G20-nin daimi üzvü olması məsələsinə baxılıb. Ümumilikdə, Hindistanda keçirilən sammit təşkilatın tarixində ən çətin sammitlərindən biri kimi qiymətləndirilir. Çünki yekun bəyannamənin razılaşdırılması təxminən iyirmi gün davam edib.**

## Ukrayna müharibəsinə "yumşaq" yanaşma

Sammitdə G20 ölkələri yekun sənəddə Ukrayna xalqının müharibədən əziyyət çəkdiyini vurğulayıblar. Lakin keçən il Balidə keçirilən sammitlə müqayisədə müharibəyə görə Rusiya tənqid olunmayıb. Belə ki, ötən il keçirilən sammit zamanı qəbul edilən bəyannamədə Rusiya müharibəyə görə qınanılır və rus qoşunlarının Ukraynadan çıxarılması tələb olunurdu. Bu dəfə isə liderlər sənəddə Ukrayna ilə bağlı belə bir cümlənin qəbuluna razılaşıblar: "G20-nin liderləri BMT Nizamnaməsinə riayət etməyə və nüvə silahının təhdid və ya istifadəsindən çəkinməyə çağırış edib". "The Times of India" qəzetinin yazdığına görə, Ukrayna ilə bağlı ifadəni razılaşdırmaq üçün görüş iştirakçılarına 150 saat vaxt lazım olub.

Ekspertlər G20 ölkələrinin daha yumşaq ifadələrdən istifadə etməsini Rusiyanın tərəfdaşlarının mövqeyi ilə bağlı olduğunu düşünür. Əks halda, BRİCS (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikası) ölkələri sərt ifadələrə imkan verməyəcəkdi. Təsadüfi deyil ki, Braziliya Prezidenti Luiz İnasio Lula da Silva sammitdə çıxışı zamanı deyib ki, geosiyasi ziddiyyətlər və problemlər İyirmilik Qrupunun (G20) işinə mane olmaq üçün bəhanə kimi istifadə edilməməlidir. "Biz geosiyasi problemlərin G20-nin müxtəlif səlahiyyətli orqanlarının gündəmini əvəz etməsinə icazə verə bilmərik. Biz G20-nin bölünməsində maraqlı deyilik. Yalnız birgə fəaliyyətlə günümüzün çağırışlarına cavab verə bilərik", - deyə o qeyd edib.

## Afrika İttifaqı G20-yə üzv oldu

Sammit zamanı 55 ölkədən ibarət Afrika İttifaqı G20-nin daimi üzvü seçilib. İndiyə qədər Afrikadan yalnız CAR təşkilatı daimi üzvü idi. Afrika İttifaqının təşkilata daxil olması G7 ölkələrinin uzun müddətdir dominant rol oynadığı G20-də Qlobal Cənub Ölkələrinin mövqeyini daha da gücləndirəcək. Siyasi şərhçilər bu faktı Çin və Rusiyanın BRİCS təşkilatını genişləndirməklə G20-yə alternativ yaratmaq cəhdinə cavab olduğunu bildirirlər.

## "Bir kəmər, bir yol" layihəsinə alternativ?

Zirvə görüşündə ABŞ, Hindistan və Səudiyyə Ərəbistanı liderləri Yaxın Şərq, Cənubi Asiya və Avropa arasında dəmir yolu və liman əlaqələri qurmaq planlarını açıqlayıblar. ABŞ prezidenti Co Baydenin bunun "əsl böyük bir iş" olduğunu söyləyib. Bir sıra ekspertlər hesab edirlər ki, Bayden administrasiyası Vaşinqtonu G20 qrupunda inkişaf etməkdə olan ölkələr üçün alternativ tərəfdaş və sərmayəçi kimi təqdim etməklə Çinin "Bir kəmər və bir yol" təşəbbüsünə qarşı mübarizə aparmağa çalışır.

İtaliya da Hindistan, Yaxın Şərq və Avropanı birləşdirəcək yeni iqtisadi və infrastruktur dəhlizi layihəsində aparıcı rol oynamaq niyyətindədir. İtaliyanın Baş naziri Ciorcia Meloni yeni imkanlar və rifah yaratmaq yanaşması ilə reallaşdırılması nəzərdə tutulan yeni iqtisadi dəhlizin qlobal əlaqələri gücləndirəcəyini, İtaliya iqtisadiyyatının inkişafına səbəb olacağını və ölkəsinin bu istiqamətdə öz töhfəsini verməyə hazır olduğunu bildirib. Baş nazir İtaliyanın aşağı və orta gəlirli ölkələrdə daha yaxşı gələcək və infrastruktur qurmaq istədiyini, İtaliya şirkətlərinin dənizçilik və dəmir yolu sektorlarında böyük təcrübəsi olduğunu, iqtisadi dəhlizin biznes sektorunda qarşılıqlı fayda üçün böyük potensial yaradacağını qeyd edib. O vurğulayıb ki, ölkəsi Aralıq dənizi ilə Hind-Sakit okeanları arasında enerji və rəqəmsal əlaqələr daxil olmaqla, Afrika və Körfəz arasında "körpü"lərin qurulmasına töhfə vermək istəyir.

"Biz Avropa İttifaqının dəstəklədiyi, İtaliya və Tunisi birləşdirəcək elektrik enerjisinin ötürülməsi layihəsini həyata keçiririk. Həmçinin enerji sektorunda, xüsusilə də, Yaxın Şərqdə istehsal olunan yaşıl hidrogenin Aralıq dənizinə nəqlində birgə fəaliyyət göstərə bilərik", - deyə Baş nazir bildirib.

Lakin Yaxın Şərqdə dəmir yolu xətlərinin çəkilməsini və sonra onları liman vasitəsilə Hindistana birləşdirməyi nəzərdə tutan layihənin kim tərəfindən maliyyələşdiriləcəyi və ya vaxt çərçivəsi haqqında heç bir məlumat verilməyib.

## Növbəti sammit Braziliyada keçiriləcək




## İqlim dəyişmələri ilə birgə mübarizə

G20 liderləri 2030-cu ilə qədər qlobal miqyasda bərpa olunan enerji potensialını üç dəfə artırmaq və kömür enerjisini mərhələli şəkildə azaltmaq zərurəti barədə razılığa gəliblər. Lakin əsas iqlim hədəfləri müəyyən edilməyib.

Ölkələr bərpa olunan enerji mənbələrinin artırılması hədəfinə nail olmaq məqsədilə mövcud siyasət və hədəflərə dəyişiklik etmək üçün heç bir plan təqdim etməyib. Təşkilat, həmçinin yaşıl enerjiyə keçidi maliyyələşdirmək üçün ildə 4 trilyon dollara ehtiyac olacağını bildirib, amma bunun üçün fəaliyyət planı açıqlanmayıb.

## Türkiyə Prezidentindən Qarabağ açıqlaması

G20 liderlərinin sammiti çərçivəsində baş tutan ikitərəfli görüşlər zamanı Ermənistan-Azərbaycan gərginliyi də müzakirə edilib. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü zamanı Ermənistan və Azərbaycan arasındakı mövcud vəziyyət də gündəmə gətirilib. Cənab Ərdoğan keçirdiyi mətbuat konfransında Ermənistan baş naziri Nikol Paşinyanla da telefonla danışacağını deyib. O bildirib ki, ermənilərin Qarabağda atdığı addımlar, yeni qondarma "seçkilər" qəbuledilməzdir: "Bunu Avropa İttifaqı ölkələri də bunu qəbul etmir. Şarl Mişellə görüşümüz zamanı da onun buna mənfi yanaşdığını gördüm. Telefon danışdığım zamanı Paşinyana da xəbərdarlıq edəcəm, belə bir "seçkinin" qəbul edilə bilməyəcəyini nəzərə çatdıracam. İndiyədək danışıqlar apardığımız dost Qərb ölkələri bu seçkiləri qəbul etmir".

Qeyd edək ki, sammitin yekun bəyannaməsi qəbul olunub. Hindistan təşkilata sədrliyi Braziliyaya təhvil verib. Növbəti sammit də gələn il bu ölkədə keçiriləcək.

*N.BAYRAMLI*

# Natamam "iqtisadçının" siyasi savadsızlığı

**Son vaxtlarda sosial şəbəkələrdə REAL partiyasının icra katibi Natiq Cəfərlinin absurd paylaşımlarına tez-tez rast gəlinir. REAL-ın təmsilçisinin fikirləri əslində, reallığı əks etdirmir, bir sıra hallarda utopik və populizm səciyyəsi daşıyır. Natiq Cəfərli özünü Azərbaycan cəmiyyətinə "iqtisadçı" kimi təqdim edir, hərçənd ki, onun ehtimal etdiyi iqtisadi proqnozlar heç vaxt özünü doğrultmur. Bu da ilk növbədə Natiq Cəfərlinin iqtisadi təhlillər üzərindən siyasi manipulyasiyalar etmək cəhdləri ilə bağlıdır. O, daim oxucuları, cəmiyyəti çaş-baş salmaqdan ötrü məqsədli şəkildə reallığın astar üzünü təqdim edir, təhriflərə yol verir. REAL yetkilisinin Yeni Azərbaycan Partiyası (YAP) ilə bağlı ifadə etdiyi fikirlər bu qənaəti daha da möhkəmləndirir və natamam "iqtisadçının" siyasi cəhətdən də savadsızlığını ortaya qoyur.**



## Natiq Cəfərlinin qərəzi

Özünü çox bilmiş kimi göstərməyə çalışan Natiq Cəfərli ərz edir: "Bizdə problem odur ki, YAP özü də klassik anlamda partiya, iqtidar partiyası deyil, iqtidarda təmsilçiləri olan partiyadır - bu fərqli anlayışlardır. YAP-ın siyasi xətti, ideoloji kimliyi, istiqaməti məchuldur. Yeri gələndə millətçi-türkçü olurlar, bəzən "sollaşırlar", bəzən "sağa" dönüş edirlər, birdən "multikulturalist" donu geyinirlər, çox vaxt da hər vəziyyətə uyğunlaşıb sadəcə, siyasi diskursu yola verirlər. Çox istərdim ki, yeni siyasi dönəmdə əsas siyasi rəqibimiz olan YAP-ın ideoloji kimliyini biləsk, ona uyğun da alternativlər yaradaq".

Natiq Cəfərlinin belə fikirlərdə bulunması siyasi konfiqurasiyada rəqabət mühitinin olmasını "arzulayan" REAL yetkilisinə heç bir halda başucalığı gətirmir. Natiq Cəfərlini tanımayanlar onun absurd paylaşımı ilə tanış olduqda deyərlər ki, bu fikirləri yazan Azərbaycanın siyasi palitrasından tamamilə bixəbərdir. Ancaq yox, Natiq Cəfərli Aydan, kosmosdan gəlməyib, ölkənin siyasi mühitinin içindədir və prosesləri də yaxından izləyir. Sadəcə, siyasi qərəzi, YAP-ın uğurlarını həzm edə bilməməsi onu reallığa əyri güzgüdən baxmağa sövq edib. Bu qədər bəsit!

Yeni Azərbaycan Partiyasını iqtidar partiyası hesab etməyən Natiq Cəfərliyə qısaca yaddaş xatırlatması etmək istərdik. YAP Azərbaycan xalqının istək və arzularının nəticəsi olaraq 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib və Heydər Əliyev onun sədri seçilib. Siyasət tarixində yarandığı vaxtdan cəmi bir neçə ay sonra hakimiyyətə gələn çox az sayda partiyanın adını çəkə bilərik. Özü də hər kəs yaxşı bilir ki, Yeni Azərbaycan Partiyası iqtidara sələflərindən fərli olaraq iqtidara əyri yollarla, populist vədlərlə gəlmədi. YAP-ın iqdar partiyasına çevrilməsi xalqın, cəmiyyətin təkidinə və böyük inamına əsaslanır. Natiq Cəfərli həmin dövrün mənzərəsini, yəqin ki, unutmayıb. 1993-cü ilin yayına doğru ölkədə vəziyyət kritik dərəcədə ağırlaşmışdı. AXC-"Müsavat" iqtidarının bir illik hakimiyyəti respublikamızı uçurumun kənarına gətirib çıxarmışdı. Ölkədə xaos, anarxiya, tənəzzül, sosial gərginlik pik həddə çatmışdı. Ön xəttə ardıcıl uğursuzluqlar yaşayırdıq. Vətəndaş qarşıdurması tam real idi. Belə bir vəziyyətdə xalq yeganə nicat yolunu o dövrdə Naxçıvanda xilaskarlıq missiyasını yerinə yetirən Heydər Əliyevi Azərbaycanın siyasi rəhbərliyinə gəlməsində gördü. Xalq, cəmiyyət nəinki yeni yaranan bir partiyanın - YAP-ın sədrinin ölkənin siyasi rəhbərliyinə gəlməsini arzulayırdı, həttа bunu qətiyyətlə təkid edirdi. YAP sədri Heydər Əliyev bu çağırışa "hə" cavabını verdi və belə perspektivi aydın olmayan bir dövrdə Azərbaycana rəhbərlik etməyin məsuliyyətini öz üzərinə götürdü.

## Xalqın təkidi və inamı ilə hakimiyyətə gələn YAP

1993-cü ilin iyun ayında Heydər Əliyevin xalqımızın israrlı tələbi ilə yenidən hakimiyyətə qayıdışı Azərbaycan tarixinə "Milli Qurtuluş Günü" kimi daxil oldu. 1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkilərində Heydər Əliyev 98.80% səslə qalib gəldi və bununla da YAP iqtidar partiyası kimi özünü təsdiq etdi. Partiya "Yeni, müstəqil Azərbaycan uğrunda" ideyasından çıxış edərək, dövlət siyasətinin həyata keçirilməsində yaxından iştirak etməyə başladı.

YAP-ın Azərbaycanın alternativsiz iqtidar partiyası olmasının tarixi həmin dövrdən başlayaraq bu günə qədər davam edir. 2003-cü il oktyabrın 15-də keçirilən növbəti prezident seçkilərində Heydər Əliyev siyasi kursunun layiqli varisi olan İlham Əliyev yenə də xalqın böyük inamı əsasında ölkənin Prezidenti seçildi. Heydər Əliyev yoluna sonsuz sadiqlik nümayiş etdirən İlham Əliyev YAP-ın Sədridir. Ölkədə keçirilən bütün seçkilərin qalibi məhz Yeni Azərbaycan Partiyasıdır. Bütün bunların müqabilində Natiq Cəfərli necə iddia edə bilər ki, YAP iqtidar partiyası deyil?

## YAP-ın ideoloji kimliyi bəllidir, proqramı tam şəffaf və aydındır

Natiq Cəfərli hər bir partiyanın ideoloji kimliyini müəyyənləşdirməsinin zəruri olduğunu bildirir. Onun təmsil etdiyi REAL-ın hansı ideoloji cəbhədə yer aldığını, fəaliyyət istiqamətlərini hansı tezislər əsasında müəyyənləşdirdiyini deyə bilmərik. YAP-ın isə ideoloji kimliyi bəllidir, partiyanın proqramı tam şəffaf və aydındır. Güman etmirik ki, Natiq Cəfərlinin internetə çıxış imkanları məhdudur və yaxud heç yoxdur. Belə isə bəs, o, nə üçün qısa axtarış edib Yeni Azərbaycan Partiyasının hamıya açıq olan proqramı ilə tanış olmaq fürsətini əldən verib? Axı YAP öz proqramını heç kimdən gizlətmir, bu sənəd internetdə hamıya açıqdır. Yeni Azərbaycan Partiyasının son proqramı İdarə Heyətinin qərarı ilə 29.12.2021-ci il tarixində təsdiqlənib. Sənəddən də bəlli olduğu kimi, YAP siyasi varisliyin təmin olunmasını, başqa sözlə desək, Heydər Əliyev yolunu özünün əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirib. Proqramda qeyd olunduğu kimi Heydər Əliyev yolu:

-milli maraqların üstünlüyü;

-güclü, müstəqil, hüquqi, demokratik dövlət;

-inkişaf edən şaxələndirilmiş iqtisadiyyat;

-idarəçilikdə və milli ideologiyada varislilik;

-azad insan, azad cəmiyyət, xalq-hakimiyyət vəhdəti, inkişaf etmiş vətəndaş cəmiyyəti, söz və mətbuat azadlığı, siyasi plüralizm, multikulturalizm, tolerantlıq kimi dəyərlər üzərində qurulub. Bütün bunlar isə YAP-ın ideoloji kimliyini, eyni zamanda, Natiq Cəfərlinin qərəzini, siyasi səriştəsizliyini və məsuliyyətsizliyini ortaya qoyur.

*Mübariz ABDULLAYEV*

# 4 "tezis" - 4 səhv...

## Şahramanyan "başsız xoren"in yolunu gedir

Sentyabrın 9-da Xankəndidə "seçkilər" keçirilib. Azərbaycanın ərazisində Şahramanyan 23 qondarma deputatdan 22-sinin "səsi" ilə qondarma rejimin təzə "başçısı" olub. Bu "seçki"nin tanınmayacağı haqqında bildirişli olsa da, yenidən oyuncaq rejimə növbəti "prezidenti" təyin ediblər. Sayca 5-ci olan Şahramanyan "seçildiyi gün"dən başlayaraq sələflərindən heç də geri qalmayan iddialarla gündəmi zəbt edərək də istəyib. Belə ki, o, Saakyan, Qukasyan məktəbinin davamçısı kimi absurd fikirlərlə dolu "proqramını" açıqlayıb. 4 bənddən ibarət olan proqramı Şahramanyanın hansı havada olduğundan xəbər verir. İxtisasca iqtisadçı olan Şahramanyanın şəxsi işində xəfiyyəçilik daha geniş yer alıb. 1999- 2008-ci illərdə qondarma "dqr"in "milli təhlükəsizlik naziri"olub. Sonra vergi sahəsinə üz tutan Şahramanyan bu sahədə müəmmalı təhlükəsizlik və kəşfiyyat idarəsində "rəis" olub. Göründüyü kimi o, iqtisadi "savadını" kəşfiyyat işlərinə yönəldib... "Prezident" kimi proqramına daxil etdiyi həmin 4 bənddə də onun bəzi iqtisadi ştrixləri gözə dəyir...

## "Oyuncaq dövlət"in möhkəmləndirilməsi...

Gülünc proqramın tezislərinə nəzər salaq:

"Dövlətçiliyin möhkəmləndirilməsi". Burada Şahramanyan hansı ölkənin ərazisində "möhkəmlətmək" istədiyi "dövləti" nəzərdə tutduğu aydındır, amma absurddur. Çünki Azərbaycan öz ərazisində nə bir "dövlət", nə də "boz zona"nın yaradılmasına icazə verməyəcək. Bu barədə Azərbaycan qəti mövqeyini sərgiləyib. Digər tərəfdən yanaşsaq, Azərbaycanın ərazisi kimi tanınmış bir məkanda qondarma bir dövləti dünyanın heç bir ölkəsi tanımır. Hətta Fransa belə qurama "artsax"ı rəsmi səviyyədə tanımaqdan imtina edib. Yaranmış vəziyyətdə "dövlətçiliyin möhkəmləndirilməsi" ideyası nəinki yerində deyil, həttа gülüş obyektidir.

## "Acından ölənlər"in sosial-iqtisadi inkişafı...

"Artsaxın öz müqəddəratını təyinetmə hüququnun reallaşması", "xalqın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması" - Şahramanyanın "proqramı"nda əksini tapan tezislərdir. Samvel gözəl anlayır ki, sələflərinin, xüsusilə Ermənistanın və onun havadarlarının "artsax" dedikləri oyuncağı tərəf kimi təqdim etmək üçün dəridən-qabıqdan çıxmalarına baxmayaraq, Azərbaycan Qarabağı öz ərazisi, orada yaşayan ermələri isə vətəndaşı kimi qəbul edir. Xalqının sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasını öhdəsinə götürdüyünü dəfələrlə bəyan edib. Artıq 15 gündür ki, Ağdam-Xankəndi yolunda Bakıdan gətirilmiş yardım TIRları gözləyir. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, status olmayacaq. Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşları kimi Konstitusiyamıza uyğun şəkildə bütün hüquqlardan istifadə edə bilərlər. Bu gün "blokada" da olduğunu sübut etməyə çalışan separatçı rejim tör-töküntüləri isə yardımın qəbul edilməsinə manea yaradır.



"Laçın dəhlizi ilə Ermənistanla birbaşa əlaqəmiz olmalıdır, başqa yollar açıla bilər, amma dəhlizi əvəz etməməlidir. Dövlətçiliyin əsaslarını sarsıdan addımlara qarşı barışmaz mübarizə aparacağıq". Samvelin bu tezisi isə Azərbaycanın ərazi bütövlüyünə birbaşa təhdid xarakterlidir. Əvvəla Laçın dəhliz deyil, yoldur və bu il aprelin 23-də Azərbaycan suveren və legim hüququndan istifadə edərək Laçın-Xankəndi yolunun başlanğıcında qurulan sərhəd-buraxılış məntəqəsində Azərbaycan bayrağı qaldırılıb.

Bununla da Azərbaycan ərazi bütövlüyünü təmin edib. Bunu qəbul etməyən qüvvələrin - Ermənistan,

## Dəhliz yox, YOL...

Fransa və onların digər havadarlarının BMT müstəvisində belə müzakirəyə çıxardığı məsələ isə nəticəsiz qalıb. Azərbaycanın beynəlxalq hüquq çərçivəsində atdığı addımla məsələ kökündən həll olunub. Şahramanyan Ermənistan xorunun isə yaxın tarixi fiaskosunu - 16 avqustu yəqin unudub.

Təzə "başçının" "tezisləri" "Fəryad" filmindəki başsız xoreni yada saldı. O, arvadının yuxusuna gəlib "Qarabağ - dərdim mənim" bağırırdı. Şahramanyan bu gün "başçı" kimi "bağırsa" da, başsız halı ilə yalnız yuxulara gələcəyi gün uzaqda deyil.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressaİnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# COVİD-in yeni ştammı...

## Azərbaycan üçün təhlükə var ?

*Yeganə BAYRAMOVA*

2019-cu ildə Çinin Uhan şəhərində ortaya çıxan COVİD-19 insan həyatını təhdid etməyə davam edir. Virus zamanla mutasiyaya uğrayır və yeni variantlarla ortaya çıxır. Mütəxəssislər yeni variantlar səbəbiylə payız və qış aylarında koronaya yoluxmaların sayında artım ola biləcəyini açıqlayırlar.

Pandemiyanın əvvəllərində insanlarda bu xəstəliklə bağlı qorxu var idi. COVİD-lə əlaqədar dövlətlər virusun yayılmasının qarşısını almaq üçün çoxsaylı tədbirlər həyata keçiriblər. Karantin rejiminin tətbiq edilməsi, iş yerlərinin bağlanması, sosial izolyasiya-bütün bunlar insan psixologiyasına təsirsiz ötüşməyə bilməzdi.

## Narahatlıq və gərginlik yaranmışdı

Əvvəllər əksər insanların virusla bağlı şübhəsi var idi və xəstəliyin ağırlığına inanmırdılar. Lakin infeksiyanın yayılması nəticəsində hər kəsin ətrafında ölüm halları artdıqca insanların xəstəliyə münasibəti dəyişdi. Bununla da onlarda qorxu, narahatlıq, gərginlik hissi baş qaldırdı. Qısa müddətdə bitəcəyi gözlənilən xəstəliyin daha geniş yayılması, getdikcə ağır hal alması, ölüm hallarının artması müşahidə edildi. Virusa yoluxduğu halda qorxu, həyəcan keçirən şəxslərin xəstəliyi daha ağır keçirdikləri, bəzən onların həyəcan və qorxudan ürəklərinin dayandığı ilə bağlı məlumatlar da yayıldı.

Zaman keçdikcə insanlar pandemiya ilə bağlı karantin rejiminə, həyat tərzinə alışsa da narahatlıq və həyəcan hissləri davam edir. Xüsusən, həssas qrupa aid olan şəxslərdə - yaşlılar, qayğıya ehtiyacı olan, sağlamlıqla bağlı problem yaşayan insanlarda belə hallar daha çox müşahidə olunur.

## Yeni ştamm-“Pirola”

Dünyada milyonlarla insanın ölümünə səbəb olan koronavirus epidemiyası yeni variantlarla təsirini artırmağa davam edir. Son günlər koronavirusun yeni ştammı olan “Pirola” bir çox ölkədə sürətlə yayılır. Artıq “Pirola”nın ilk aşkar edildiyi ölkə olan İsraildə PCR testlərinə yenidən başladığı da bildirilir. Yayılma sürəti ilə diqqət çəkən yeni ştammın qarşıdakı dövrdə İsraildə məhdudiyyətlərə səbəb ola biləcəyi qeyd olunur. Sözügedən variant Danimarka, İngiltərə, ABŞ, Cənubi Afrika və Portuqaliyada da aşkar edilib.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) “Pirola”nın xüsusən yayılma sürətinə görə diqqətlə izlənilməli olduğunu tövsiyə edib.

Məlumdur ki, payız mövsümündə bir çox infeksiyalar aktivləşir. Fəsil dəyişkənliyi insanların orqanizmində müəyyən dəyişikliyə səbəb olur. Pandemiyanın hər yeni dalğası infeksiyanın daha sürətli və immun nəzarətindən asan yayına bilən mutant variantlar törədir. Bütün bunları nəzərə alaraq ölkəmizdə koronavirus infeksiyasına yoluxma halının payızda yüksəlməsi istisna deyil.




## Azərbaycana da gələ bilər

COVİD-in kəskin respirator virus infeksiyaları qrupuna aid olduğunu bildirən infeksionist bu virusun ağciyər xəstəlikləri törətdiyini, hava-damcı yolu ilə bir şəxsdən digərinə keçdiyini vurğulayıb: “Belə xəstəliklər xüsusilə payız-qış mövsümündə daha aktiv olur. Yaz-yay aylarında isə aktivliyi azalır. “Pirola” variant hələ ki ölkəmizdə müşahidə edilməyib. Amma nəzəri cəhətdən təbii yoluxucu xəstəlikdir, gələ bilər. Payızda və qışa doğru dünyada yoluxma sayında artım gözləyirik və bu artım bizdə də gözlənilir. Buna baxmayaraq, yeni variant müəyyən məhdudlaşdırıcı tədbirlərin görülməsinə səbəb olmayacaq”.

## COVİD-19 hələ də sürətlə yayılmaqdadır

İnfeksionist Natiq Əzimov “Pirola” varinatının əlamətləri, nə dərəcədə təhükəli olması barədə “Yeni Azərbaycan”a danışıb. Onun sözlərinə görə, yeni variantlar koronavirusa xas olan xüsusiyyətlərə malikdir və mutasiyaların baş verməsi nəticəsində yeni ştammların yaranması tam normal haldır: “Ona görə də koronavirus meydana çıxandan onun yeni variantlarının yayıldığına şahid oluruq. Çin, Yaponiya, Tayland kimi ölkələrdə COVİD-19 hələ də sürətlə yayılmaqdadır. Məlumdur ki, Çində hələ tam kollektiv immunitet formalaşmayıb. Ona görə orada yoluxma ehtimalı daha sürətlidir və yeni variantların meydana çıxmasına bu ölkələrdə daha çox rast gəlinir”.

## Sadə tövsiyələri unutmaq olmaz...

N.Əzimov qeyd edib ki, payız aylarında yoluxma sayının çoxalmaması üçün hər kəs diqqətli olmalıdır: “Soyuq havalarda insanlar daha çox qapalı məkanlarda olurlar, bu da yoluxma ehtimalını artırır. Mümkün qədər qapalı, insanların çox toplaşdığı məkanlardan uzaq durmaq lazımdır. Dezinfeksiyaedici məhsullardan istifadəni də unutmaq olmaz”.




# “Azercell”in dəstəyi ilə olimpiadalara hazırlaşan məktəblilərimiz Beynəlxalq İnformatika Olimpiadasında uğur qazandılar

28 avqust - 4 sentyabr 2023-cü il tarixlərində Macarıstanın Seged şəhərində 35-ci Beynəlxalq İnformatika Olimpiadası keçirilb. 87 ölkə və 351 iştirakçının yarışdığı olimpiadada məktəblilərimiz uğurla çıxış edərək adlarını mükafatçılar siyahısına yazdırıblar. “Azercell”-in dəstəyi ilə Azərbaycanı təmsil edən şagirdlər yarışı 1 bürünc medal və 2 həvəsləndirici mükafatla başa vurublar.

Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinif şagirdləri Fuad Qarayev bürünc medal, Bakı şəhəri 245 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Sahib Əliyev, Gəncə şəhəri Fizika riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Fidan Hüseynova isə həvəsləndirici mükafat qazanıblar.

Olimpiadanın 2 yarış günü ərzində şagirdlərə həll etmək üçün hər gün 3 alqoritmik məsələ olmaqla, 5 saat vaxt verilib.

Qeyd edək ki, Beynəlxalq İnformatika Olimpiadası (IOI) müxtəlif ölkələrdən orta məktəb şagirdləri üçün sosial və mədəni proqramlarla müşayiət olunan illik beynəlxalq informatika yarışmasıdır. Bu, məktəblilər arasında əsas beynəlxalq elm olimpiadalarından və dünyanın ən nüfuzlu proqramlaşdırma yarışlarından biridir.

?2017-ci ildən etibarən məktəblilərimizin informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi “Azercell Telekom” MMC-nin Elm və Təhsil Nazirliyi ilə tərəfdaşlığı çərçivəsində həyata keçirilir. Bu müddət ərzində ölkəmizi təmsil edən məktəblilərimiz müxtəlif miqyaslı beynəlxalq olimpiadalarda uğurla çıxış edərək 3 qızıl, 14 gümüş və 37 bürünc olmaqla ümumilikdə 54 medal əldə ediblər.

## *İdman*

# Akrobatlarımız beynəlxalq turnirdə qızıl medal qazanıblar



Akrobatika gimnastikası üzrə Azərbaycan milli komandası Polşanın paytaxtı Varşavada keçirilən “Wars and Sawa Cup” beynəlxalq turnirində qızıl medal qazanıb.

Federasiyadan AZƏRTAC-a verilən məlumata görə, Ağasif Rəhimov və Raziyə Seyidli (qarışıq cütlük), Nəzrin Zeyniyeva, Zəhra Rəşidova, Anahita Bashiri (yeniyetmələrdən ibarət qadın qrupu), Daniel Abbasov və Murad Rəfiyev (kişi cütlüyü) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

# Azərbaycan poloçuları Avropa Çempionatında gümüş medal qazanıb



Almaniyanın Düsseldorf şəhərində At polosu üzrə 14-cü Avropa Çempionatında Azərbaycan yığması həlledici final oyununa çıxıb.

Dövlət Sərhəd Xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabr ayının 10-da komandamız son Avropa çempionu İspaniya yığması ilə qarşılaşıb və çətin mübarizədə gümüş medala layiq görülüb.

Komandamız bu mötəbər tədbirdə 3-cü dəfə iştirak etməsinə baxmayaraq, Avropanın ən güclü 8 komandası ilə birlikdə yarışaraq, çıxdığı 4 oyunun hər birindən, o cümlədən finalda qarşılaşdığı İspaniya yığması ilə qrup oyunundan qələbə ilə ayrılıb.

# Futzal üzrə Azərbaycan çempionatlarında transfer pəncərəsinin vaxtı uzadılıb

Futzal üzrə Azərbaycan Yüksək və Birinci Liqalarında yay transfer pəncərəsinin vaxtı uzadılıb.




AZƏRTAC federasiyanın rəsmi saytına istinadən xəbər verir ki, iştirakçı komandalar heyətinə qatdığı yeni oyunçuları əvvəlcədən nəzərdə tutulduğu kimi, sentyabrın 19-na qədər deyil, ayın 30-u saat 23:59-dək qeydiyyatdan keçirə bilərlər.

Yüksək Liqanın startı sentyabrın 26-na, Birinci Liqanın başlama tarixi isə oktyabrın 1-ə nəzərdə tutulub.

**Startap qurmaq istəyi olan 20 komanda qeydiyyatdan keçib**




# “Azercell”-in “İdeya İnkubasiyası Proqramı” çərçivəsində ADA tələbələri innovativ ideyalarının inkişafı üzərində işə başlayır!

“Azercell Telekom” MMC-nin ADA Universiteti Fondu (Azərbaycan) və ADA Universitetilə əməkdaşlıqda həyata keçirdiyi İdeya İnkubasiyası Proqramı”nın seçim mərhələsi bitib. Proqram sayəsində innovativ ideyalarını inkişaf etdirərək növbəti səviyyəyə qaldırmaq, startap qurmaq istəyi olan 20 komanda qeydiyyatdan keçib.

“İdeya İnkubasiyası Proqramı” çərçivəsində tələbələr mentorluq sessiyalarında, yerli və xarici mütəxəssislərin seminarlarında iştirak edib, peşəkar mentorlarla seçilmiş mövzular üzərində işə başlayacaqlar. Mentorlar sırasında Azercell-in Məhsul İdarəetmə şöbəsinin rəhbəri Nərgiz Tağızadə, Rəqəmsal Həllər və Partnyorluq şöbəsinin rəhbəri Svetlana Ağalarova, Dataların Modelləşdirilməsi şöbəsinin rəhbəri Zaur Hüseynov da yer alıblar. Sessiyalar “Biznesin diversifikasiyalaşdırılması strategiyası: Azercell-in yeni Fintech biznes istiqaməti”, “Təhsil və idman sahəsində texnoloji həllər”, “Data Science sahəsinin telekom sektorunda rolu və təsiri”, “Azərbaycan dili üçün qrafem-fonem modelinin yaradılması”, “Müştəri itkisinin aşkarlanması” və s. kimi mövzuları əhatə edəcək. Komandaların xüsusi mentorlarla təmin olunması onların təcrübələrini və ideyalarını real məhsullara, hətta müəssisələrə çevirmək şanslarını xeyli artıracaq.

“Azercell Telekom”la əməkdaşlığı universitet-özəl sektor əlaqələrində nümunə kimi dəyərləndirən ADA Universiteti Fondunun (Azərbaycan) prezidenti Natiq Hacıyev “bu əməkdaşlığın tələbələrin elmi inkişafına xidmət etdiyi, özəl sektorun isə bu birgə fəaliyyət vasitəsilə rəqabətədavamlı gənclərlə peşəkar əlaqələr qurduğu, insan resursları bazasını gücləndirdiyi” qənaətindədir.

Proqramın sonunda qalib komandalar pul mükafatı qazanacaq, Azercell şirkətində təcrübə proqramı keçmək şansı əldə edəcəklər.

“Azercell” ölkənin startap ekosisteminin inkişafı istiqamətində gənc istedadları dəstəkləyir, onlara sahibkar kimi uğur qazanmaq üçün geniş imkanlar təklif edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 7282**
**Sifariş: 2356**
“Kapital Bank”ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Günel Abbas